AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№72 (1342), 12 - 18 dekabr 2017-ci il

Qəzet 2001-ci ildən çıxır.

C.K.Qurbanovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında idman sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Cavanşir Kazım oğlu Qurbanov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 6 dekabr 2017-ci il.*




## Altay Həsənov:

## "Fərid Qayıbovun Avropa Gimnastika İttifaqının prezidenti seçilməsi Azərbaycanın yüksək təşkilatçılıq qabiliyyətinə verilən qiymətdir"

Dekabrın 6-da Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında Azərbaycan Gimnastika Federasiyasının (AGF) baş katibi Fərid Qayıbovun Avropa Gimnastika İttifaqının (UEG) prezident seçilməsi münasibətilə mətbuat konfransı keçirildi. Tədbirdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, AGF-in vitse-prezidenti Altay Həsənov və Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov və idman ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

(ardı 3-cü səhifədə)

## Azad Rəhimov Monakoda beynəlxalq forumda iştirak edib

***Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov 10-cu Sülh və İdman Forumunda iştirak etmək üçün Monakoda səfərdə olub. Forumun əsas məqsədi texnologiyanın inkişafının idmançıların daha yaxşı nəticələr əldə etmələrinə, onların fiziki sağlamlığının qorunmasına və ümumilikdə gənclərin idmana həvəsinin artırılmasına müsbət təsirinin genişləndirilməsidir.***

Dekabrın 6-dan 8-dək davam edən forumun sonuncu günündə gənclər və idman sahələrinə məsul nazirlərin toplantısı keçirilib. Braziliya, Portuqaliya, Tunis, Yəmən, Qətər, İraq, Seneqal, Sierra-Leone, Qabon və digər ölkələrin Baş nazirlərinin, gənclər və idman sahələrinə məsul nazirlərinin iştirak etdikləri toplantıda Azad Rəhimov son illər Azərbaycanda idman sahəsində görülən işlər, əldə olunan nailiyyətlər, ölkəmizin idman infrastrukturunun inkişafı barədə məlumat verib.

Bildirilib ki, 2015-ci ildə ölkəmizdə keçirilən I Avropa Oyunları paytaxtda və regionlarda idman infrastrukturunun inkişafında və yenilənməsində xüsusi rol oynayıb: "Bu gün Azərbaycanda beynəlxalq standartlara cavab verən, ən mötəbər idman tədbirlərinin keçirilməsi üçün hər cür şəraitə malik idman qurğuları var. Bakı Su İdmanı Sarayı, 68 min tamaşaçı tutumuna malik Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Şahdağ Xizək Kompleksi və digər idman qurğuları bunun bariz nümunələridir".




Səfəri çərçivəsində nazir Azad Rəhimov Monako Şahzadəsi II Albert ilə görüşüb. Nazir dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin salamını Monako Şahzadəsinə çatdırıb. II Albert dövlətimizin başçısının salamına görə təşəkkürünü bildirib, onun da salamını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib.

Bununla yanaşı, nazir Fransa Milli Olimpiya Komitəsinin baş katibi, Səudiyyə Ərəbistanı Milli Olimpiya Komitəsinin beynəlxalq əlaqələr departamentinin direktoru və digər şəxslərlə də görüşüb.

## AGF-yə yeni baş katib seçilib

Dekabrın 9-da Azərbaycan Gimnastika Federasiyasının (AGF) İcraiyyə Komitəsinin 30-cu iclasında federasiyanın yeni baş katibi seçilib.

İclasda əvvəlcə Bakı Gimnastika Məktəbi və "Ocaq" İdman Klubunun rəhbərləri həmin qurumların fəaliyyətini əks etdirən təqdimatla çıxış ediblər. Təqdimat zamanı gimnastika növləri üzrə fəaliyyət göstərən bölmələr haqqında məlumat verilib. Son ildə gimnastikanın inkişafı istiqamətində görülmüş işlər, o cümlədən gələcək planlar müzakirə edilib.

İllik hesabatlar dinlənildikdən sonra Avropa Gimnastika İttifaqı (UEG) prezident seçilmiş Fərid Qayıbovun AGF və UEG arasında maraqların mümkün toqquşmasını nəzərə alaraq quruma yeni baş katibin seçilməsi məsələsinə baxılıb. Azərbaycan Gimnastika Federasiyasının baş katibi vəzifəsinə 2007-2009-cu illərdə federasiyanın baş katibinin köməkçisi, 2009-cu ildən bu günədək müavini vəzifəsində çalışmış Nurlana Məmmədzadə seçilib.

Qeyd edək ki, Nurlana Məmmədzadə 1979-cu ildə Bakıda anadan olub. 1996-2000-ci illərdə Təfəkkür Universitetinin ingilis dili ixtisası üzrə filologiya fakültəsində təhsil alıb, 2003-cü ildə isə həmin ixtisas üzrə Xəzər Universitetinin magistr dərəcəsini əldə edib.

## Anons

Heydər Əliyevin xatirəsi idmançıların da qəlbində həmişə yaşayır və yaşayacaqdır Səh. 2

"IV İslam Həmrəyliyi Oyunları Azərbaycan fotoqraflarının gözü ilə" adlı fotoalbom çapdan çıxıb Səh. 3

## Olimpizm

### Rusiya yığması Pxenyan-2018 Olimpiadasından kənarlaşdırılıb

Beynəlxalq Olimpiya Komitəsi (BOK) Rusiyanı müvəqqəti olaraq qurumun tərkibindən uzaqlaşdırıb. Bununla Rusiya yığması həm də 2018-ci ildə Cənubi Koreyanın Pxenyan şəhərində keçiriləcək XXIII Qış Olimpiya Oyunlarından kənarda qalıb. Bu barədə qərar BOK-un İcraiyyə Komitəsinin iclasında qəbul edilib.

Cənubi Koreyanın mədəniyyət, idman və turizm nazirliyi Beynəlxalq Olimpiya Komitəsinin (BOK) bu qərarından sonra rusiyalı idmançıları Pxenyan-2018 Olimpiadasında neytral statusda çıxış etməyə çağırıb. Nazirlik BOK-un bu qərarından təəssüfləndiyini bildirib.

PyeongChang 2018

### Latviya Olimpiada-2026-ya təşkilatçılıq edə bilər

İsveç nümayəndələri Latviya Olimpiya Komitəsi ilə danışıqlar aparıblar. Danışıqlarda məqsəd Olimpiada-2026 uğrunda mübarizə aparan ölkələrdən biri kimi İsveçin Siquldakı (Latviya) bobsley trasını sifariş kitabına əlavə etməsinin mümkünlüyüdür.

Beləliklə, İsveç 2026-cı ildə keçirilən Qış Olimpiya Oyunlarına ev sahibliyi etməli olarsa, onda Latviya da bu idman tədbirinin təşkilatçılarından biri olacaq. Bu məsələ ilə bağlı qəti qərar 2019-cu ildə qəbul ediləcək.

## Anons

Dünya çempionatındakı rəqiblərimiz müəyyənləşib Səh. 3

İdmançımız Tbilisidə keçirilən yarışlarda uğurla çıxış edib Səh. 4

"Tour de Azerbaidjan-2018" may ayında keçiriləcək Səh. 3

Növbəti mövsümün rəsmi təqvimi açıqlandı Səh. 4

Millimizə yeni baş məşqçi təyin olunub Səh. 4

Beynəlxalq Könüllülər Günü qeyd olunub Səh. 4

"Çox istəyirəm ki, Olimpiya çempionu yetişdirim" Səh. 4

İdman növü uşağın fiziki göstəricisinə, marağına uyğun seçilməlidir Səh. 6

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

Uşaq və gənclərin sağlamlığı parlaq gələcəyin təminatıdır Səh. 5



# Heydər Əliyevin xatirəsi idmançıların da qəlbində həmişə yaşayır və yaşayacaqdır

XX əsr bəşəriyyətə çox görkəmli elm xadimləri, müdrik, təcrübəli və qətiyyətli rəhbərlər, son dərəcə bacarıqlı dövlət başçıları bəxş etmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev belə dahi şəxsiyyətlərdən biridir. Fəxr edirik ki, 34 illik çoxcəhətli fəaliyyəti, müdrik rəhbərliyi ilə Azərbaycan xalqının tarixində bu böyük şəxsiyyət əsrlərə sığmayan şərəfli iz qoymuşdur. Onun möhkəm inamı, hər şeyə nüfuzetmə qabiliyyəti, qibtə doğuracaq hafizəsi hamını heyran edirdi. Heydər Əliyevin müdrik rəhbərliyi və uzaqgörən siyasəti sayəsində Azərbaycan iqtisadi, ictimai-siyasi, mənəvi, mədəni və idman sahələrində böyük uğurlar qazanaraq, təkcə keçmiş SSRİ-də deyil, bütün dünyada tanındı. Xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin yaradıcısı və qurucusu, dünyanın ən nüfuzlu siyasi xadimlərindən biri olan Heydər Əliyevin xatirəsi idmançıların da qəlbində həmişə yaşayır və yaşayacaqdır. Təkcə ona görə yox ki, Heydər Əliyev Azərbaycanda müstəqil dövlət quruculuğunun memarı idi, həm də ona görə ki, Azərbaycan xalqının hər bir nümayəndəsi bu böyük insanı ölkənin milli təhlükəsizliyinin və sosial-iqtisadi rifahının təminatçısı kimi qəbul edirdi. Bu dahi şəxsiyyət Azərbaycanı inkişaf yoluna çıxarıb. Bu gün xalqımızın orta və gənc nəsillərinin inkişafı, onların cəmiyyətdə formalaşmasının əsası məhz bu böyük şəxsiyyətin dövlətimizin sükanı arxasına keçdiyi illərdə qoyulub. Tarixə nəzər saldıqca, bunun bir daha şahidi oluruq. Belə ki, Azərbaycan idmançılarının hazırlığının yaxşılaşdırılması işində respublika fəallarının bədən tərbiyəsi və idmana həsr olunmuş 21 iyun 1974-cü il tarixli yığıncağı həlledici rol oynadı. Həmin yığıncaqda respublikada bədən tərbiyəsi və idman işinin vəziyyətinin ətraflı və işgüzar təhlili verildi.

Elə həmin il avqustun 6-da Azərbaycan KP MK və respublika Nazirlər Sovetinin "Respublikada bədən tərbiyəsi və idmanın vəziyyəti və onun daha da inkişaf etdirilməsi tədbirləri haqqında" qərarı qəbul olundu. Respublikanın fəallar yığıncağından sonra isə qərarda idman qurğularının tikilməsi, kənddə və yaşayış yerlərində bədən tərbiyəsi və idmanın inkişafı, respublikanın qabaqcıl idmançılarının ustalığının tərəqqisinə nail olunması, bədən tərbiyəsi-idman işinə rəhbərliyin kökündən yaxşılaşdırılması və başqa mühüm məsələlər qaldırıldı. Bundan başqa, qərarda kütləvi bədən tərbiyəsi və idman işləri rəhbərliyinin işinə qiymət verilməsinin bədən tərbiyəsi və idmanın hansı dərəcədə inkişaf etməsindən asılı olduğu da qeyd edilmişdi. Göstərilirdi ki, bədən tərbiyəsi və idmanla müntəzəm məşğul olanların sayı son 10 ildə iki dəfədən çox artmış və 1974-cü ildə 886 min 433 nəfərə çatmışdır.

Azərbaycanda bədən tərbiyəsi və idmana dövlət qayğısının nəticəsində 1974-cü il sentyabrın 1-dən uşaq və gənclər idman məktəblərində və yüksək idman ustalığı məktəblərində müasir elmi-metodik tələblər və təlim-məşq məşğələlərinin həcmi xeyli artırılmışdı. Belə ki:

-1975-ci ildə futbol, yüngül atletika, idman oyunları üzrə respublika yüksək idman ustalığı məktəbləri, 1976-1980-ci illər ərzində isə şəhər və rayon bədən tərbiyəsi və idman komitələri yanında 14 idman məktəbi açılmışdı;

- İdman obyektlərinin tikintisinin həcminin artması ilə əlaqədar Respublika Bədən Tərbiyəsi və İdman Komitəsində əsaslı tikinti şöbəsi yaradılmışdı;

- Zəhmətkeşlər arasında sağlamlıq və kütləvi idman işi kökündən yaxşılaşdırılmış, VMH kompleksinin geniş təbliğ olunması sahəsində həmkarlar ittifaqı təşkilatlarının və könüllü idman cəmiyyətlərinin təşəbbüsü ilə əmək və təlim prosesində istehsalat gimnastikası təşkil edilmiş, sağlamlıq zonaları yaradılmış, yaşayış yerlərində bədən tərbiyəsi işi gücləndirilmişdi;

- Uşaq və gənclər idman məktəblərinin fəaliyyəti gücləndirilmiş, məşqçi-müəllim heyətinin tərkibi keyfiyyətcə yaxşılaşdırılmış, uşaq və gənclər idman məktəblərində təlim - tərbiyə prosesinin səviyyəsi yüksəldilmişdi;

- Respublikanın rayon və şəhərlərində idman üzrə ixtisaslaşma aparılmış, gimnastika, yüngül atletika, üzgüçülük, avarçəkmə, qılıncoynatma və idmanın digər növləri üzrə ehtiyat qüvvələr hazırlamaq üçün müddəti uzadılmış siniflər təşkil edilmişdi;

- Şagirdlər arasında bədən tərbiyəsi və idman işi xeyli yaxşılaşdırılmış, texniki peşə məktəblərində idman kompleksləri yaradılmışdı;

- Zəhmətkeşlər arasında kütləvi sağlamlıq işi yaxşılaşdırılmış, sağlamlıq zonaları şəbəkəsi genişləndirilmiş, müalicə bədən tərbiyəsi inkişaf etdirilmişdi;

- 1974-1976-cı illər ərzində Mingəçevir, Lənkəran, Şəki şəhərlərində bədən tərbiyəsi dispanserləri açılmış, bədən tərbiyəsi və idmanla məşğul olan şəxslərə xidmət üçün həkim kabinetləri şəbəkəsi genişləndirilmişdi;

- "Neftçi" futbol komandasının maddi-texniki bazası möhkəmləndirilmiş və bazanın tikintisi 1975-ci ildə başa çatdırılmışdı;

- 1975-1980-ci illərdə Bakı şəhərində idmanın Olimpiya növləri üzrə ixtisaslaşdırılmış idman qurğuları inşa edilmişdi;

- Orta və səkkizillik məktəblərin yanında idman salonları, habelə atçılıq idman məktəbləri yaradılmışdı;

- 1975-80-cı illərdə Bakının mikrorayonlarında və digər yaşayış massivlərində idman qurğuları tikilib istifadəyə verilmişdi. Boş sahələri olan mövcud orta və səkkizillik məktəblərin binalarına bitişik idman salonları tikilmiş, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun (indiki ADBTİA) binası və idman kompleksinin inşası isə 1972-ci il sentyabrın 1-də başa çatmışdı;

Bədən tərbiyəsi və idmanın kütləviliyinin artırılması, respublika atletlərinin ustalığının yüksəldilməsi zərurəti bədən tərbiyəsi və idman üzrə elmi-metodik işin kökündən dəyişdirilməsini tələb edirdi. Bu məqsədlə də 1975-ci ildə Respublika İdman Komitəsinin nəzdində bədən tərbiyəsi və idman sahəsində fəaliyyət göstərən Elmi-Tədqiqat İşlərinin Koordinasiya Mərkəzi, iki laboratoriyası olan elmi-metodik kabinet yaradılmışdı. Elmi-metodik kabinet hər rübdə bir dəfə metodik tövsiyələr məcmuəsini dərc etməyə başlamışdı ki, bu da, təbii olaraq, elmi adı və dərəcəsi olan ixtisasçılar hazırlanması işində, məşqlərin elmi əsaslar üzərində aparılmasında irəliyə doğru atılan mühüm addım idi.

Respublika idman təşkilatları qadınların idmana cəlb edilməsinə böyük əhəmiyyət verirdilər. 1969-cu ildən 1976-cı ilə kimi Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunun 1089 qadın bitirmişdi. Göründüyü kimi, illər keçdikcə qadın idmançılarımızın sayı artırdı.

Bədən tərbiyəsi və idmana dövlət qayğısı nəticəsində 1974-78-ci illərdə respublikada güclü mədəni-idman kompleksi də yaradılmışdır.

Azərbaycanda həmin illərdə 3349 klub, 4148 kitabxana, 95 muzey, 10580 idman qurğusu, o cümlədən 1.233 idman salonu, 62 stadion, 25 üzgüçülük hovuzu var idi. Mədəni-maarif və kütləvi bədən tərbiyəsi işi sahəsində müsbət təcrübə toplamış idman klublarından və qurğularından istifadə olunmasında onların rolu artmışdı.

Xarici idman komandaları ilə görüşlər də Azərbaycan idmançılarının təkmilləşməsində mühüm amillərdən biri idi. Həmin illərdə keçmiş sovet idmançılarının, o cümlədən Azərbaycan idmançılarının da sosialist ölkələri, inkişaf etmiş Asiya və Afrika ölkələri ilə əlaqələri möhkəmlənişdi. Azərbaycan məşqçiləri, bədən tərbiyəsi müəllimləri iş təcrübələrini yaymaq və idmançıları hazırlamaq məqsədilə müxtəlif ölkələrə göndərilirdilər.

Təsadüfi deyil ki, həmin illərdə azərbaycanlı mütəxəssislər İraq, Küveyt, Bolqarıstan, Əlcəzair kimi ölkədə çalışırdılar.

1991-1993-cü illərdə respublikamız böyük çətinliklərlə üz-üzə qalmışdı. Belə bir şəraitdə xalqımız üzünü Heydər Əliyevə tutdu. Dahi şəxsiyyətin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycan tarixinin, bərpa edilmiş müstəqilliyimizin yeni bir dövrü başlandı. Azərbaycan xalqı, Azərbaycan dövlətçiliyi, müstəqilliyimiz xilas edildi. Eyni zamanda, ölkəmizdə idman və Olimpiya Hərəkatının yüksəlişi başlandı.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin diqqət və qayğısı sayəsində həyatımızın digər sahələrində olduğu kimi, bədən tərbiyəsi və idmanın kütləviliyi də geniş vüsət almışdır. Respublikamızın keçid dövründə Azərbaycan gənclərinin qarşılaşdığı çətinliklər, şübhəsiz, mövcud idi. 1982-ci ilin ortalarından etibarən respublikada gənclərin taleyinə laqeyd münasibət göstərilməsi nəticəsində gənc nəsil çox kəskin problemlərlə üz-üzə qalmışdı. Hətta gənclərin problemlərinin həlli ilə məşğul olan dövlət qurumu da yox idi. Məhz Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin 179 saylı Fərmanına əsasən, 1994-cü ili respublikamızın idman həyatında dönüş ili adlandırmaq olar, Deməliyik ki, məhz həmin ildən müstəqil Azərbaycan dövləti rəsmən bədən tərbiyəsi və idmana sahib çıxdığını bəyan etmiş, bu sahənin dövlət siyasətində önəmli yer tutduğunu sübuta yetirmişdir.

Heydər Əliyev Azərbaycan gənclərinin sağlamlığını "dövlət əmlakı" adlandırır və ona görə Azərbaycan dövləti insanların sağlamlığının keşiyində dayanır, adamların cansağlığının möhkəmləndirilməsini birinci dərəcəli vacib məsələ sayırıd. Dahi insan bununla bağlı demişdir: "Biz işimizi elə qurmuşuq ki, bədən tərbiyəsi və idmanın inkişafı üçün madditexniki baza yaradılsın. Şübhəsiz, ölkəmizdə idmanın inkişafında heç kəs öz köməkliyini əsirgəməməlidir. Müxtəlif təşkilatlar, kommersiya strukturları da öz xeyirxah münasibətlərini bildirməlidirlər. Güman edirəm ki, bildirəcəklər də, çünki bu, ayrı-ayrı adamların şəxsi işi deyil, xalqımızın, Azərbaycanın ümummilli işidir".

Ümummilli liderimiz Heydər Əliyevin Fərmanı ilə 1995-ci ildə Azərbaycanda idman fondu yaradıldı. İdmanın inkişafı üçün Prezident fondundan vəsait ayrıldı. Ulu öndər Heydər Əliyevin dövlətimizə rəhbərlik etdiyi illər ərzində idmanın maddi-texniki bazası möhkəmlənmiş, bədən tərbiyəsi və idman kütləviləşmiş, ölkəmiz Olimpiya Oyunlarında layiqincə təmsil olunmuşdu. Ulu öndərimiz idmanın hər bir ölkə üçün beynəlxalq miqyasda da böyük siyasi əhəmiyyət kəsb etdiyini həmişə ön plana çəkmişdir. Ümummilli liderimiz ölkənin xoşbəxt gələcəyini gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsində görürdü.

Azərbaycanın tarixinə, öz xalqının milli xüsusiyyətlərinə dərindən bələd olan Heydər Əliyev bu xüsusiyyətlər arasında idmana meyli yüksək dəyərləndirirdi: "Xalqımız, millətimiz genetik xüsusiyyətlərinə görə fiziki cəhətdən sağlam insanlardan ibarət olan xalqdır, millətdir. Fiziki sağlamlıq və fizki güc mənəvi sağlamlıqla bərabər Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir".

Ümummilli liderin idman və bədən tərbiyəsinin, Olimpiya Hərəkatının mahiyyəti, funksiyaları, cəmiyyətdəki rolu haqqında fikirləri, gördüyü işlər zaman-zaman təhlil və tədqiqatların mövzusu olacaqdır. Ulu öndərin Azərbaycanda bədən tərbiyəsinin, idmanın inkişafı, eləcə də Olimpiya Hərəkatının genişlənməsi istiqamətində gördüyü işlər mahiyyətinə və miqyasına görə son dərəcə fərqlənir. İdman və bədən tərbiyəsini hər bir sivilizasiyalı xalqda, ölkədə vətəndaşların həyat tərzinin mühüm hissəsi sayan Heydər Əliyevin arzularından biri də hər bir Azərbaycan vətəndaşının bədən tərbiyəsi və idmanla məşğul olması idi. Müdrik rəhbər deyirdi: "Bizim məqsədimiz bütün Azərbaycan xalqının sağlamlığını - həm fiziki, həm də mənəvi, əqli sağlamlığını təmin etməkdir".

Heydər Əliyev 1995-ci ildə idman tədbirlərinin birində çıxışı zamanı bu sahənin daha da inkişaf etdirilməsi üçün tövsiyələrini verərək demişdir: "İndi müstəqil Azərbaycanda idmanın inkişafı üçün, bədən tərbiyəsinin geniş yayılması üçün daha çox imkan yaradılmışdır. Bu imkanlardan Azərbaycan vətəndaşları səmərəli istifadə etməlidirlər. Biz indi müstəqil dövlət kimi, dünya miqyasında keçirilən bütün ictimai, mədəni, siyasi tədbirlərdə iştirak edirik və bu baxımdan Azərbaycan idmançılarının müxtəlif beynəlxalq idman yarışlarında iştirak etməsi respublikamız üçün çox əhəmiyyətlidir".

Heydər Əliyev beynəlxalq yarışlar arasında Olimpiya Oyunlarının ən mötəbər, ən yüksək yer tutduğunu da həmişə diqqət mərkəzinə çəkirdi. O, bu barədə demişdir: "Olimpiya Oyunları dünyanın bütün ölkələrini maraqlandırır, burada cəmləşdirir. Hər bir ölkə çalışır ki, Olimpiya Oyunlarında təmsil olunsun".

Ulu öndər idmançının Olimpiya Oyunlarında iştirak etməsini böyük nailiyyət kimi qiymətləndirirdi. 1996-cı ildə Atlanta Olimpiadasına yola düşməzdən əvvəl idmançılarla keçirilən görüşdə Heydər Əliyev olimpiadada iştirakın vacibliyini xüsusi vurğulayaraq demişdir: "Olimpiya oyunlarında iştirak etmək hüququ almaq üçün lazımi göstəricilər əldə etmək gərəkdir. Əgər bunlar olmasa, Azərbaycan dövləti, Azərbaycan Prezidenti nə qədər çalışsa, o nailiyyəti əldə edə bilməyən idmançı yığma komandanın tərkibinə düşə bilməz. Ona görə də 23 nəfərdən ibarət olan bu nümayəndə heyəti Azərbaycan Respublikasının idman sahəsindəki imkanını nümayiş etdirir. Sizin, yəni Azərbaycan Respublikasının komandasının XXVI Yay Olimpiya Oyunlarında iştirak etməsi özü əlamətdar bir hadisədir. Siz oradan hansı nailiyyətlə qayıdacaqsınızsa, bu, məsələnin ikinci tərəfidir".

İdmançılarımız Atlanta Olimpiadasında ölkəmizi layiqincə təmsil etdilər və sərbəst güləşçimiz Namiq Abdullayev gümüş medal qazandı. Olimpiadadan qayıtdıqdan sonra Prezident Aparatında keçirilən görüşdə Heydər Əliyev Namiq Abdullayevin gümüş medalının qızıla bərabər olduğunu bildirdi.

Heydər Əliyevin Azərbaycan idmanının və Olimpiya Hərəkatının inkişafında ən böyük xidmətlərindən biri də onun Azərbaycanda beynəlxalq səviyyəli idman yarışlarının keçirilməsi üçün verdiyi qərarlar və göstərişlərdən ibarətdir. Heydər Əliyev idmanla bağlı beynəlxalq əlaqələrə də xüsusi diqqət yetirirdi. Ümummilli lider ölkəmizə gələn yüksək vəzifəli idman rəhbərlərini və xadimlərini şəxsən özü qəbul etmiş və onları Azərbaycanla sıx əməkdaşlığa çağırmışdı. Ümummilli lider 1994-cü ildə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) keçmiş prezidenti Xuan Antonio Samarançı, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti Mario Vaskes Rananı və Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roqqu, 1995-ci ildə Beynəlxalq Boks Federasiyasının prezidenti Ənvər Çoudrini, Avropa Həvəskar Boks Assosiasiyasının prezidenti Emil Jeçev başda olmaqla assosiasiyanın nümayəndə heyətini, 2000-ci ildə Avorpa Olimpiya Komitəsinin prezidenti Jak Roqqu və baş katibi Mario Peskanteni qəbul etmişdi.

Futbol üzrə Azərbaycan milli komandası 1998-ci il dünya çempionatının seçmə oyunları çərçivəsində ilk qələbəsini 1996-cı il avqustun 31-də Bakıda keçirilən Azərbaycan-İsveçrə oyununda qazanıb - 1:0. Həmin matçı stadionda izləyən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev oyundan sonra öz fikirlərini belə açıqlamışdır: "Mən keçmiş illərdə, 70-ci illərdə bizim komandanın futbol yarışlarında iştirakını xatırlayıram. Deyə bilərəm ki, mən heç vaxt Azərbaycan futbol komandasının bu qədər gözəl oynamasını görməmişəm. Bu da bizim dövlət müstəqilliyimizin nəticəsidir".

Azərbaycan Prezidentinin idmana göstərdiyi diqqət və qayğı beynəlxalq idman və Olimpiya təşkilatlarında da böyük əks-sədaya səbəb oldu. 1997-ci ildə Milli Olimpiya Komitələri Assosiasiyasının İslandiyanın Reykyavik şəhərindəki Baş Məclisində Azərbaycan Prezidenti Olimpiya Hərəkatı və idman sahəsində böyük xidmətlərinə görə görkəmli dövlət xadimlərinə verilən "Olimpiya ləyaqəti" mükafatı ilə təltif olundu.

1997-ci ildən Azərbaycan idmanı və Olimpiya Hərəkatının yeni dövrü başlandı. Ölkədə idmanın və Olimpiya Hərəkatının inkişaf etdirilməsi ilə bağlı dövlət səviyyəsində qətiyyətli addımlar atıldı. 1998-ci ilin fevralında Azərbaycan Respublikasının Prezidenti "XXVII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında" Sərəncam imzaladı. Bu Sərəncam Olimpiya Oyunlarının hazırlıq işinə güclü təkan verdi.

2000-ci il avqustun 25-də Zuğulbadakı "Gənclik" kompleksində XXVII Yay Olimpiya Oynlarına gedən idmançılarla Prezidentin görüşü oldu. Həmin görüşdə dövlət başçısı dörd il əvvəl olduğu kimi, bu dəfə də olimpiyaçılara xeyir-duasını, tövsiyələrini verdi, onlara uğurlar arzuladı. Sidneydə idmançılarımız iki qızıl, bir bürünc medal qazanaraq 199 ölkə arasında 34-cü yeri tutdular. Sidney Olimpiadasından sonra Olimpiyaçıları qəbul edən Azərbaycan Respublikasının Prezidenti onların nəticələrini yüksək qiymətləndirdi. O, idmançılarımızın bu Olimpiadadakı qələbəsini müstəqil Azərbaycanın ən böyük uğuru kimi dəyərləndirdi: "Bu gün, eyni zamanda, bizim idmanımızın bayramıdır. Xalqımızın idman qələbələri ilə əlaqədar olan bayramıdır". Prezidentin Sərəncamı ilə Olimpiadanın medalçıları və onların məşqçiləri Azərbaycanın yüksək orden və medalları ilə təltif olundular.

Sidney Olimpiadasından sönra dövlət başçısının şəxsi təşəbbüsü və dəstəyi ilə idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, bu sahədə kütləviliyin təmin edilməsi istiqamətində böyük işlər görüldü. 2002-ci ildə Azərbaycan idmanının inkişafında müstəsna rol oynamış Milli Olimpiya Komitəsinin onillik yubileyi qeyd olundu. Yubiley tədbirində iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev öz geniş nitqində ölkə idmanının sürətlə inkişafına, Olimpiya Hərəkatının gündən-günə genişlənməsinə münasibətini bildirərək Azərbaycan idmanının parlaq gələcəyinə inandığını xüsusi vurğuladı: "İnanıram ki, bizim yüksək nəticələr əldə edən idmançılarımızın sayı artacaqdır. İnanıram ki, idman, bədən tərbiyəsi Azərbaycanda getdikcə kütləvi xarakter alacaqdır. İnanıram ki, Azərbaycan gəncliyi fiziki, zehni cəhətdən daha da yüksək olacaqdır".

Ulu öndərimizin öyüd və nəsihətlərini, tövsiyələrini həmişə uca tutan idmançılarımız Heydər Əliyevin bu inamını ləyaqətlə doğrultdular. Heydər Əliyevin çıxışlarında səslənən "Azərbaycan Milli Olimpiya Komitəsinin qurub yaratdıqları bir adam üçün deyil, millət, xalq, ölkədə idmanın inkişafı üçündür", "Biz idmana, bədən tərbiyəsinə qayğı göstərərək millət, xalq, vətən qarşısında öz borcumuzu yerinə yetiririk", "Biz quruculuq işlərini aparmışıq, apırırıq və gələcəkdə daha sürətlə aparacağıq", "Gələcək Olimpiya Oyunlarına qədər Azərbaycanda idman daha da yüksələcək, daha da yüksək inkişaf edəcəkdir" kəlamları bu gün də idmançılarımızı böyük qələbələrə ruhlandırır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün sahələrdə ölkənin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəni ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi xətlə çox böyük uğurla irəliyə aparır. Bu, idmanda da əsas götürülüb. İdman sahəsində də ümummilli liderin qoyduğu ənənə davam etdirilir.

2004-cü ildə Afina Olimpiadasında iştirak edən atletlərimiz 1 qızıl, 4 bürünc medal əldə etdilər. 2008-ci ildə keçirilən Pekin Yay Olimpiya Oyunlarında onlar daha böyük uğura imza atdılar. Təmsilçilərimiz dünyanın ən möhtəşəm idman yarışı olan olimpiadada 1 qızıl, 2 gümüş, 4 bürünc medal qazandılar. Ötən illər ərzində dövlətin diqqət və qayğısı sayəsində ölkəmizdə idman öz yüksəliş dövrünü yaşayır. Azərbaycan dünyada idman ölkəsi kimi tanınıb. Təmsilçilərimiz müxtəlif idman növləri üzrə beynəlxalq arenalarda keçirilən yarışlarda uğurla çıxış edərək, yüksək nailiyyətlər qazanırlar. Respublikamızın hər yerində müasir Olimpiya idman kompleksləri, meydançalar, idman mərkəzləri və digər qurğular inşa edilib və edilməkdədir. Ölkəmizin hər yerində yeniyetmə və gənc idmançıların idmanla məşğul olmaları üçün lazımi şərait yaradılıb. Heç də təsadüfi deyil ki, ölkəmizdə ayrı-ayrı idman növləri üzrə çox saylı mötəbər turnirlər keçirilir. Azərbaycan bu yarışlara yüksək səviyyədə ev sahibliyi edir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev kimi böyük şəxsiyyətlərin fəaliyyətinin araşdırılması illər, bəlkə də, onilliklər tələb edir, amma, əlbəttə, ki, hamının eyni dərəcədə xəbərdar olduğu çox adi bir həqiqət də var: Heydər Əliyev tarixin Azərbaycan xalqına bəxş etdiyi misilsiz bir şəxsiyyətdir və yaddaşlarda əbədi yaşayacaqdır.

*Dilqəm Quliyev, professor*

## *Altay Həsənov:*

## *“Fərid Qayıbovun Avropa Gimnastika İttifaqının prezidenti seçilməsi Azərbaycanın yüksək təşkilatçılıq qabiliyyətinə verilən qiymətdir”*



*(əvvəli 1-ci səhifədə)*

Tədbiri giriş sözü ilə açan Çingiz Hüseynzadə başa çatmaqda olan 2017-ci ilin ölkəmiz üçün növbəti uğurlu illərdən biri olduğunu bildirdi. AGF-nin baş katibi Fərid Qayıbovun Avropa Gimnastika İttifaqının prezidenti seçilməsini ölkəmiz üçün növbəti uğur kimi dəyərləndirən MOK-un vitse-prezidenti Azərbaycanda gimnastikanın inkişafından danışdı: “Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçildikdən sonra gimnastika ölkəmizdə sürətlə inkişaf etməyə başladı. Həmin vaxtdan etibarən Azərbaycan idmanın bu növü üzrə nüfuzlu beynəlxalq yarışlara ev sahibliyi edib və etməkdədir”.

Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov çıxış edərək bildirdi ki, Fərid Qayıbovun Avropa Gimnastika İttifaqının prezidenti seçilməsi Azərbaycanın yüksək təşkilatçılıq qabiliyyətinə verilən qiymətdir. Altay Həsənov dedi: “Ölkəmizdə bütün idman növləri kimi gimnastika da günbəgün inkişaf edir. Nəinki paytaxtda, regionlarda gimnastikanın kütləviliyi təmin olunur. Bakı bu növ üzrə mötəbər idman tədbirlərinə ev sahibliyi edir. AGF-nin baş katibinin UEG-nin prezidenti seçilməsi böyük uğurdur və bizim üçün fəxrdir. Bu, federasiyanı daha məsuliyyətlə işləməyə və həmyerlimizə dəstək olmağa cəlb edir”. AGF-nin vitse-prezidenti yeni baş katibin adının qurumun İcraiyyə Komitəsinin iclasında açıqlanacağını da bildirdi.

Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov konfransada olan hər kəsə, onu dəstəkləyən insanlara, AGF-na, onun rəhbərliyinə minnətdarlığını bildirdi. Fərid Qayıbov 2006-cı ildən AGF-in baş katibi vəzifəsində işlədiyini və UEG-nin prezidenti seçilməsi ilə əlaqədar onu qarşıda gərgin iş qrafikinin gözlədiyini dedi: “Seçkilərdə çətin rəqiblərim olsa da, qalib gəlməyi bacardım. Fikirləşirəm ki, Avropa Gimnastika İttifaqına rəhbərlik etmək üçün kifayət qədər təcrübəm vardır. Çünki son 4 ildə UEG-in vitse-prezident kimi çalışmışam. Vəzifəmin öhdəsindən layiqincə gəlməyə çalışacağam”.

***Səadət Hakıyeva***

## “IV İslam Həmrəyliyi Oyunları Azərbaycan fotoqraflarının gözü ilə” adlı fotoalbom çapdan çıxıb




Fotoalboma 52 müəllifin 200-ə yaxın əsəri daxil edilib. Nəfis şəkildə tərtib olunan nəşrdə Azərbaycanın dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin və ölkənin birinci vitse-prezidenti, IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın ölkəmizdə yüksək səviyyədə keçirilən İslamiada ilə bağlı fikirləri də yer alıb.

“İdman” qəzetinin fotoqrafı Dilavər Nəcəfovun tərtibçisi olduğu fotoalbomda İslamiadanın möhtəşəm açılış və bağlanış mərasimlərini, eləcə də yarışların ən maraqlı anlarını, qaliblərin mükafatlandırılmasını əks etdirən fotoşəkillər toplanıb.

Fotoalbomda “Olimpiya dünyası” qəzetinin fotoqraflarının da bu oyunlar zamanı çəkdiyi maraqlı şəkillər də yer alıb.

Qeyd edək ki, bu ilin iyulunda Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, “Azəridmanservis” MMC-nin dəstəyi, AZƏRTAC-ın və “İdman” qəzetinin informasiya dəstəyi ilə Muzey Mərkəzində “IV İslam Həmrəyliyi Oyunları Azərbaycan fotoqraflarının gözü ilə” adlı fotosərgi keçirilib.

## “Tour de Azerbaidjan-2018” may ayında keçiriləcək

Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.1 kateqoriyalı “Tour de Azerbaidjan-2018” veloturunun keçirilmə vaxtı müəyyənləşib. Gələn ilin mayın 9-13-də planetin ən güclü şosse velosiped komandaları yenidən Azərbaycanda mübarizə aparacaqlar. 5 günlük yarış artıq Beynəlxalq Velosipedçilər İttifaqının 2018-ci il üçün müəyyənləşdirdiyi təqvim planına da daxil edilib.

“Tour de Azerbaidjan-2018” şosse velosipedi üzrə gələn ilin mayında qəbul edəcəyimiz yeganə yarış olmayacaq. Bu veloturda iştirak etmək üçün Azərbaycana gələcək komandalar mayın 8-də birgünlük “Bakı-Xızı Eko” turunda da yarışacaqlar. Beynəlxalq Velosipedçilər İttifaqının kifayət qədər yüksək səviyyəli yarışı hesab edilən 1.1 kateqoriyalı velotur da artıq qurumun təqvim planında yer alıb.

Xatırladaq ki, şosse velosipedi üzrə gələn ilin mayında keçiriləcək bu 2 yarışdan əlavə, iyunun 5-9-da Bakıda velosiped idmanının BMX növü üzrə (olimpiya idman növü) dünya çempionatı da təşkil olunacaq.

## Astanadan 3 qızıl medal

Qazaxıstanın paytaxtı Astana şəhərində əməkdar məşqçi A.Kazımbetovun xatirəsinə yeniyetmə güləşçilər arasında beynəlxalq turnir keçirilib. Yarışda ölkəmizi sərbəst güləş üzrə yeniyetmələrdən ibarət yığma komandanın üzvləri təmsil ediblər.



Güləşçilərimiz Özbəkistan, Qırğızıstan, Rusiya və Qazaxıstan pəhləvanlarının iştirak etdiyi turniri 3 qızıl medalla başa vurublar. Medalları komandamıza Əlihəsən Əmirli (45 kq), Elvin Dünyamalıoğlu (65 kq) və Fuad Mayılov (80 kq) qazandırıb.

## Xəzər İsayev:

## “İslam Həmrəyliyi Oyunlarının təşkili və İslam dəyərlərinə sadiqlik özlüyündə ədalətliliyi təmsil edir”

Azərbaycanda digər sahələrdə olduğu kimi, idmanda da inkişaf göz qabağındadır. Ölkəmiz irimiqyaslı yarışlara yüksək səviyyədə ev sahibliyi edir, idmançılarımız beynəlxalq arenada qələbələr qazanaraq xalqımızı sevindirirlər. Ötən illərdə olduğu kimi, bu il də Azərbaycan idmançıları möhtəşəm qələbələr qazanaraq üçrəngli bayrağımızı dalğalandırıb və himnimizi səsləndiriblər.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının sədri, Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin baş direktoru Xəzər İsayev cari ilin idman yekunları ilə bağlı qəzetimizə müsahibə verib.

***- Xəzər müəllim, bugünlərdə Türkiyədə “Fair Play Dostluq Nişanı” ilə təltif olunmusunuz. Necə düşünürsünüz, bu mükafat Azərbaycan və Türkiyə Milli Olimpiya komitələri arasında əməkdaşlığa hansı töhfələr verəcək?***

- Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin noyabr ayında dalbadal iki tədbiri keçirildi. Noyabrın 17-də Belçikanın Brüssel şəhərində təşkil olunan təntənəli qala gecəsində 5 nominasiya üzrə mükafatlar təqdim edildi. Nominantlar arasında Beynəlxalq Olimpiya Komitəsinin keçmiş prezidenti Jak Roqq da var idi. Qeyd edim ki, gələn ilin martında Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin Konqresi və Baş Assambleyası keçiriləcək. Konqresin və Baş Assambleyanın işində müsbət mənada çoxlu dəyişikliklərin olacağı gözlənilir. Beynəlxalq Ədalətli Oyunlar Təşkilatının strukturunda da yeniliklərin olacağı istisna deyil. Ümid edirəm ki, hər iki tədbir Ədalətli Oyunlar Hərəkatının təkmilləşməsinə və inkişafına təkan verəcək.

Beynəlxalq qurumun növbəti tədbiri noyabrın 20-də İstanbulda Türkiyə Milli Olimpiya Komitəsinin təşkilatçılığı ilə keçirildi. İki qardaş ölkənin Milli Olimpiya komitələri arasında da sıx dostluq və əməkdaşlıq əlaqələri mövcuddur. Ədalətli Oyunlar Hərəkatının rəhbəri Erdoğan Arıpınar ilə çox gözəl dostluq münasibətlərimiz var. Bu dostluq və işgüzar münasibətlərin nəticəsidir ki, Türkiyə ilə Azərbaycan arasında ədalətli oyunlar sahəsində əməkdaşlığın inkişafı və gücləndirilməsindəki xidmətlərimə görə Türkiyə Milli Olimpiya Komitəsinin prezidenti Uğur Erdener tərəfindən “Fair Play Dostluq Nişanı” ilə təltif edildim. Mərasimdə ədalət prinsiplərinə sadiqliyə görə, idmanın bütün sahələrini əhatə edən 19 nəfərə nominasiyalar üzrə mükafatlar təqdim edildi. Əlbəttə ki, bizə verilən bütün mükafatlar ölkəmizə verilən mükafatlardır və Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu idman siyasətinin nəticəsidir.

***- Ölkəmizdə Ədalətli Oyunlar Hərəkatının inkişafı istiqamətində hansı işlər görülür?***

- Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası ölkə rəhbəri İlham Əliyevin 1997-ci ildə MOK-un prezidenti seçilməsindən sonra yaradılıb. İlham Əliyevin təşəbbüsü ilə fəaliyyətə başlayan təşkilat 1998-ci ildə Avropa Ədalətli Oyunlar Hərəkatının (AƏOH) üzvü olub. Həmin vaxt ardıcıl iki il təşkilatın tədbirində ölkəmizi Olimpiya çempionu Rəfiqə Şabanova, sonrakı il Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə təmsil edib. 2000-ci ildən Azərbaycan Ədalətli Oyunlar Komissiyasının rəhbəri olaraq ölkəmizi qitə və dünya Ədalətli Oyunlar təşkilatlarının tədbirlərində təmsil edirəm. Ölkəmiz Avropa və Beynəlxalq Ədalətli Oyunlar təşkilatları ilə sıx əməkdaşlıq edir. 2009-cu ildə Avropa Ədalətli Oyunlar Hərəkatının konqresi və Assambleyası, 2015-ci ildə isə Avropa və Beynəlxalq Ədalətli Oyunlar hərəkatlarının birgə konqresi, Baş Assambleyası ölkəmizdə yüksək səviyyədə təşkil olundu. Azərbaycan Prezidenti İlham Əliyev gündəlik həyatda Olimpiya ideallarının, Ədalətli Oyunlar dəyərlərinin və prinsiplərinin vacibliyinə yönələn bütün təşəbbüslərə verdiyi hərtərəfli dəstəyə görə 2009-cu ildə Avropa Ədalətli Oyunlar Hərəkatının “Şərəf” nişanı ilə təltif edilib. 2015-ci ildə isə dövlətimizin başçısına Beynəlxalq Ədalətli Oyunlar Təşkilatının xüsusi medalı təqdim olunub.



Biz hər il yarışlarda, tədbir və görüşlərimizdə, eləcə də idman ilinin yekunlarına həsr olunmuş təntənəli mərasimdə müxtəlif nominasiyalar üzrə Ədalətli Oyunlar Hərəkatına sadiq olanları mükafatlandırırıq. Bundan başqa, fiziki qüsurlu məktəblilərlə görüşlər təşkil olunur, onların sağlam məktəblilərlə birgə tədbirləri keçirilir. Ədalət prinsiplərinin təbliği istiqamətində ali məktəb tələbələri arasında “Karvan yolu” layihəsinin həyata keçirilməsi barədə müzakirələr aparırıq. Daha sonralar bu layihənin miqyasının genişləndirilib bağça və orta məktəbləri də əhatə etməsini planlaşdırırıq.

***- Olimpiya Hərəkatının kütləviləşməsi, gənclərin bu sahədə maarifləndirilməsi istiqamətində MOK tərəfindən hansı işlər görülür?***

- Milli Olimpiya Komitəsinin təşkilatçılığı ilə bir çox tədbirlər keçirilir. Bu tədbirlər MOK və Gənclər və İdman Nazirliyi tərəfindən məqsədyönlü təşkil olunur. Beynəlxalq Olimpiya Komitəsinin fəal üzvü kimi Azərbaycan Milli Olimpiya Komitəsi 1996-cı ildən başlayaraq, hər il Beynəlxalq Olimpiya Gününü (BOK) qeyd edir. Müasir Olimpiya Hərəkatının yaranması və BOK-un təsis olunması münasibətilə Olimpiya bayramında estafet yarışları təşkil edilir. Belə tədbirlərin təşkilində məqsəd Olimpiya Hərəkatı və sağlam həyat tərzini əhali arasında təşviq etməklə insanları, xüsusilə uşaq və gəncləri Olimpiya Hərəkatının fəal üzvlərinə çevirməkdir.

***- Siz, həm də Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin nəzdində fəaliyyət göstərən “Gömrükçü” İdman Klubuna rəhbərlik edirsiniz.***

- Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin “Gömrükçü” İdman Klubu ölkəmizdə fəallığı ilə seçilən və idmanın inkişafına öz töhfəsini verən idman ocaqlarından biridir. Klubda Olimpiya idman növlərindən atletika, basketbol, bədii gimnastika, cudo, futbol, idman dırmanması, güləş, stend atıcılığı, üzgüçülük, taekvondo, WKF karate, qeyri-Olimpiya növlərindən isə bodibildinq, budo, əlbəyaxa döyüş, kikboksinq, pouerliftinq, şahmat, şaolin, uşusanda, aykido, çerlidinq üzrə 500-dək idmançı məşğul olur. Klubun yetirmələri 2017-ci ili də möhtəşəm uğurlarla başa vururlar. İdmançılarımız respublika miqyaslı yarışlarda, Avropa və dünya, ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunlarında müvəffəqiyyətlə çıxış ediblər. Təmsilçilərimiz İslamiadada 2 qızıl, 2 gümüş medal əldə ediblər. Bu, bizim üçün yüksək nailiyyətdir. Rio-2016-nın bürünc mükafatçısı, taekvondoçumuz Patimat Abakarova və zorxana idman növündə idmançımız Rüfət Güləliyev qızıl medal qazanıblar. Rüfət Güləliyev gümüş medalı komanda yarışlarında əldə edib. Atletimiz Rahib Məmmədov isə yarışları gümüş medala başa vurub. İdmançılarımız, ümumilikdə, 2017-ci ilin 11 ayında keçirilən yarışlarda 257 medala sahib olublar. Bu uğurlu nailiyyətlərin əldə edilməsinə imkan verən əlverişli şəraitə və geniş imkanlara görə Dövlət Gömrük Komitəsinin rəhbərliyinə minnətdarlığımı bildirirəm.

***- Cari ilin idman yekunlarını necə dəyərləndirirsiniz?***

- Ölkəmizdə idman həmişə inkişafdadır. Ötən illərdə olduğu kimi, cari ildə də atletlərimiz həm Olimpiya, həm də qeyri-Olimpiya idman növlərində uğurlu nəticələr əldə ediblər. Ölkəmiz bu il IV İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə ev sahibliyi etməklə yanaşı, yarışların qalibi olub. İslam Həmrəyliyi Oyunlarının təşkili, İslam dəyərlərinə sadiqlik özlüyündə ədalətliliyi təmsil edir. Ümumiyyətlə, bu il idmançılarımızın beynəlxalq arenada qazandığı nailiyyətləri yüksək qiymətləndirirəm.

## *Dünya çempionatındakı rəqiblərimiz müəyyənləşib*

Gələn il Yaponiyada keçiriləcək qadın voleybolçular arasında dünya çempionatının püşkü atılıb. Çempionatda mübarizə aparacaq Azərbaycan yığması Rusiya, ABŞ, Tailand, Trinidad və Tobaqo, Koreya Respublikası kollektivləri ilə birgə “C” qrupunda yarışacaq.



**Püşkün nəticələri aşağıdakı kimidir:**

**A qrupu:** Yaponiya, Hollandiya, Argentina, Almaniya, Kamerun, Meksika;

**B qrupu:** Çin, İtaliya, Türkiyə, Bolqarıstan, Kanada, Kuba;

**C qrupu:** Azərbaycan, ABŞ, Rusiya, Koreya Respublikası, Tailand, Trinidad və Tobaqo;

**D qrupu:** Serbiya, Braziliya, Dominikan Respublikası, Puerto-Riko, Qazaxıstan, Keniya.

Qeyd edək ki, 2018-ci il dünya çempionatı Yaponiyanın altı şəhərində - Hamamatsu, Yokohama, Kobe, Naqoya, Sapporoda və Osakada keçiriləcək. Dünya çempionatı sentyabrın 29-dan oktyabrın 20-dək təşkil ediləcək.

## Ağırlıqqaldırma

Ağırlıqqaldırma üzrə Azərbaycan ***milli komandasına yeni baş məşqçi təyin olunub. Asif Məmmədovun bu vəzifəyə təyin olunması barədə qərar Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) rəhbərliyinin və məşqçi heyətinin iclasında qəbul edilib.***

İclasda son bir ildə görülən işlərə qiymət verilməsi, yeni məşqçi heyətinin təyinatı və növbəti təlim-məşq toplanışlarına seçilmiş idmançıların müəyyənləşdirilməsi məsələləri müzakirə olunub.

Tədbirdə AAAF-ın prezidenti Cahangir Əsgərovun sabiq baş məşqçi Tofiq Heydərovun istefa ərizəsini qəbul etdiyi, onun yerinə Asif Məmmədovun təyin olunduğu diqqətə çatdırılıb.

Bu təyinatın özü üçün gözlənilməz olduğunu vurğulayan yeni baş məşqçi Asif Məmmədov deyib: "Bu, sevindirici və qürurverici olmaqla yanaşı, həm də böyük məsuliyyətdir. Federasiya rəhbərliyi bu qərarla mənə böyük etimad göstərib. Buna görə rəhbərliyə dərin minnətdarlığımı bildirirəm. Görəcəyimiz çox iş var və buna hazır olmalıyıq. Bilirsiniz ki, ağırlıqqaldırma idman növündə dopinq problemi var. Bu çətinliyin öhdəsindən gəlmək üçün çox çalışmalı, dayanmadan işləməliyik. Birgə olaraq dopinqə qarşı ciddi mübarizə aparırıq. Biz məşqçilər heyəti bu prosesə dəstək olacaq, məsələnin birdəfəlik həlli üçün əlimizdən gələni edəcəyik".

### Millimizə yeni baş məşqçi təyin olunub



İclasda AAAF-ın vitse-prezidentləri Tofiq Heydərov və Ruslan Xanverdiyev, baş katib Rizvan Rəsulov, həmçinin yığma komandaların məşqçiləri və Azərbaycan kuboku yarışında fərqlənən idmançılar iştirak ediblər.

Federasiyanın vitse-prezidenti Tofiq Heydərov şəxsi işləri ilə əlaqədar, eyni zamanda, gənc mütəxəssislərə şans vermək məqsədilə milli komandanın baş məşqçisi vəzifəsindən istefa verdiyini, lakin vitse-prezident kimi xidmətini davam etdirəcəyini bildirib.

## Güllə atıcılığı

### İdmançımız Tbilisidə keçirilən yarışlarda uğurla çıxış edib

Gürcüstanın paytaxtı Tbilisidə güllə atıcılığı üzrə beynəlxalq turnir keçirilib. Şota Kveliaşvilinin xatirəsinə həsr olunmuş yarışda "Neftçi İdman Klubu"nun təmsilçisi Ruslan Lunyov pnevmatik tapançadan 10 metr məsafəyə atəşaçmada 574 xal toplayaraq yarışın qalibi adını qazanıb. Güllə atıcımız Tbilisidə təşkil olunan açıq Gürcüstan çempionatında da bacarığını nümayiş etdirib. İdmançımız bu dəfə də mükafata sahib olub. Eyni silahdan eyni məsafəyə atəşaçma yarışında təmsilçimiz gümüş medala (565 xal) layiq görülüb. Kişi-qadın cütlükləri arasında keçirilən mübarizədə isə Ruslan Lunyov 478 xalla yenidən liderliyə yüksəlib.



## Xəbərlər

### Növbəti mövsümün rəsmi təqvimi açıqlandı

Beynəlxalq Avtomobil Federasiyasının (FIA) Dünya Şurası Formula-1 yarışlarının 2018-ci il mövsümü üçün təqvimini rəsmən təsdiq edib.

Növbəti mövsüm 21 mərhələdən ibarət olacaq. İlk yarış martın 25-də, son yarış isə noyabrın 25-də təşkil olunacaq.

Ölkəmizin üçüncü dəfə ev sahibliyi edəcəyi Azərbaycan Qran-prisi isə aprelin 29-da təşkil olunacaq. İlkin təqvimlə müqayisədə böyük dəyişikliklər edilməyib, lakin gözlənildiyi kimi, Çin və Bəhreyn mərhələləri yerlərini dəyişib. Mövsümün ikinci yarışı məhz Bəhreyndə, ardınca isə Çində keçiriləcək.

### Beynəlxalq Könüllülər Günü qeyd olunub

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti (BŞH) Beynəlxalq Könüllülər Günü münasibətilə mərasim təşkil edib. Tədbir Formula-1 Azərbaycan Qran-prisinin Pit-binasının Paddok Klubunda keçirilib.

Tədbirdə Formula-1 Azərbaycan Qran-prisinin könüllüləri, ASAN könüllüləri və "Canlı İşıqfor" piyadalara kömək təşəbbüs qrupunun üzvləri iştirak ediblər. BŞH-nin İşçi qüvvəsi şöbəsinin meneceri Atif Qəmbərov, ASAN Könüllülər məktəbinin rəhbəri Cahangir Hacıyev və "Bir Tələbə-Könüllü" Proqramının meneceri Tural Abdullazadə çıxışlarında Azərbaycanda könüllülük hərəkatının sürətli inkişafından danışıb, könüllülük proqramına qoşulan gəncləri təbrik ediblər. Qeyd olunub ki, könüllülərimiz ölkəmizin və gənclərimizin rifahı naminə mötəbər beynəlxalq tədbirlərin təşkilində fəal iştirak edirlər.

Diqqətə çatdırılıb ki, 2018-ci ildə keçiriləcək Formula-1 Azərbaycan Qran-prisində iştirak etmək üçün 12 mindən çox könüllü müraciət edib. Yaxın günlərdə müsabiqədən uğurla keçən 3 min nəfərin adı elan ediləcək və onlar təlim mərhələsinə dəvət olunacaqlar.

Daha sonra könüllülər arasında viktorinalar keçirilib və qaliblərə qiymətli hədiyyələr təqdim olunub.

## Spartakiada

### Tələbə idmançıların mübarizəsi davam edir

"Gənclik" Tələbə İdman Cəmiyyəti Respublika Şurasının təşkilatçılığı ilə orta ixtisas təhsil müəssisələrinin tələbələri arasında XIII Respublika Spartakiadası davam edir. Spartakiadanın təqvim planına idmanın 6 növü - atletika, şahmat, dama, voleybol, basketbol və stolüstü tennis daxildir. Spartakiada çərçivəsində keçirilən voleybol üzrə yarışlara yekun vurulub. Azərbaycan Dənizçilik Kollecinin idman zalında keçirilən yarışlarda qızlar arasında birinci yeri Azərbaycan Dövlət Pedaqoji Kollecinin kollektivi tutub. Bakı Rabitə və Nəqliyyat Kollecinin tələbələri ikinci, Bakı 2 nömrəli Baza Tibb Kollecinin yetirmələri isə üçüncü olublar. Gərgin idman mübarizəsi şəraitində keçən oğlanların yarışında fəxri kürsünün ən yüksək pilləsinə Bakı Rabitə və Nəqliyyat Kollecinin komandası qalxıb. Gümüş medalla Azərbaycan Dənizçilik Kollecinin təmsilçiləri, bürünc mükafatla isə Bakı 2 nömrəli Baza Tibb Kollecinin tələbələri təltif olunublar.

## Güləş

### Beynəlxalq dərəcəli hakimimiz karyerasını başa vurub

Güləş üzrə I dərəcəli hakim Qərib Əliyev beynəlxalq karyerasını başa vurub. Dünya Güləş Birliyinin (DGB) təlimatına uyğun olaraq hakimlər yalnız 60 yaşı tamam olana qədər beynəlxalq yarışları idarə etmək hüququna malikdirlər.



Ötən həftə Polşanın Bıdqoş şəhərində keçirilən 23 yaşadək güləşçilərin dünya çempionatında beynəlxalq dərəcəli hakim Qərib Əliyev sonuncu görüşünü idarə edib. Sərbəst güləş üzrə 74 kq çəki dərəcəsində final görüşünə hakimlik edən təmsilçimiz görüş bitdikdən sonra hakim kolleqalarının fit və azarkeşlərin alqış sədaları altında xalça ilə vidalaşıb. DGB-nin prezidenti Nenad Laloviç, eləcə də büro üzvləri, Hakimlər Kollegiyasının üzvləri həmyerlimizi təbrik edərək, ona gələcək fəaliyyətində uğurlar arzulayıblar.

Məlumat üçün bildirək ki, 25 ilə yaxındır beynəlxalq dərəcəli hakim müxtəlif yarışlarda ölkəmizi təmsil edən Qərib Əliyev, həm də məşqçilik fəaliyyəti ilə məşğuldur. Onun yetirmələri müxtəlif səviyyəli beynəlxalq turnirlərin, Avropa və dünya çempionatlarının mükafatçılarıdırlar. Qərib Əliyev ölkəmizdə güləş idman növünün inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilib. O, həm də Əməkdar məşqçi, eləcə də Fəxri bədən tərbiyəsi və idman işçisidir.

## Cüdo

### Təmsilçilərimiz yeni reytinq cədvəlində geriləyiblər



Beynəlxalq Cüdo Federasiyası yeni reytinq cədvəlini açıqlayıb.

Dekabr ayı üçün nəzərdə tutulan yeni reytinq cədvəlinə görə, Azərbaycan millisinin üzvlərindən Orxan Səfərov (60 kq) və Rüstəm Orucov (73 kq) ikinci pillədəki mövqelərini qoruyublar. Digər təmsilçilərimiz Hidayət Heydərov (73 kq) 4-cü, Məmmədəli Mehdiyev (90 kq) 11-ci, Elmar Qasımov (100 kq) 7-ci, Uşanqi Kokauri (+100 kq) isə 23-cü pillədədir. Cüdoçularımız Vüqar Şirinli (60 kq) 3 pillə geriləyərək 30-cu pilləyə enib. Nicat Şıxəlizadə (66 kq) də geriləyənlər sırasındadır. Cüdoçumuz 1 pillə geriləyərək 7-ci sırada qərarlaşıb. Tural Səfquliyev (90 kq) və Elxan Məmmədov (100 kq) hərəyə 1, İrina Kindzerska (+78 kq) 2 rəqibini özündən irəli buraxıb. Nəticədə idmançılarımız müvafiq olaraq, 17-ci, 4-cü və 7-ci yerə eniblər.

* * *

Sumqayıt Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş cüdo üzrə VI respublika turnirinə yekun vurulub. Turnir Gənclər və İdman Nazirliyi, Azərbaycan Cüdo Federasiyası, Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilib. Beynəlxalq turnirdə Bakı, Sumqayıt, Naxçıvan, Yevlax, Bərdə, Mingəçevir, Qusar, Qubadlı, Şabran, Laçın, Qax, Şuşa, Siyəzən, Qəbələ, Şirvan, Masallı, Xızı, Qobustan, İsmayıllı, Ağcabədi ilə yanaşı Rusiyanın Nalçik, Dərbənd şəhərlərinin və Ukraynanın yenivetmə cüdoçuları mübarizə aparıblar. 3 gün davam edən yarışda 39 komandanın tərkibində çıxış edən 563 cüdoçu qüvvəsini sınayıb.

Qaliblər diplom və medallarla təltif olunublar.

* * *

Dekabrın 16-da Rusiyanın Sankt-Peterburq şəhərində cüdo üzrə "Masters" turniri start götürəcək. 2 gün davam edəcək yarışda Azərbaycan yığması da mübarizə aparacaq. Millimizin yeni baş məşqçisi Ruslan Maşurenko ilin son turnirində 9 idmançını sınaqdan keçirəcək.

## Basketbol

### Favoritlərin duelində NTD qalib gəldi

Dekabrın 9-da Azərbaycan Texniki Universitetinin idman zalında basketbol üzrə ölkə birinciliyinin beşinci turunun oyunları keçirilib.

Turun bütün qarşılaşmaları gərgin idman mübarizəsi şəraitində keçib. Turun birinci görüşündə ALOV komandası ADNSU basketbolçularına məğlub olub -50:78.

U-16 və "80-lər" komandalarının oyunu daha maraqlı olub. Görüş "80-lər" komandasının 76:73 hesablı qələbəsi ilə başa çatıb. Turun sonuncu oyununda çempionatın favoritləri - NTD və AZTOP komandaları üz-üzə gəlib. Maraqlı mübarizə şəraitində keçən oyunda NTD komandası 94:89 hesabı ilə qələbə qazanıb. Beş turdan sonra NTD və AZTOP komandaları 9 xalla turnir cədvəlinin birinci, ikinci pillələrində qərarlaşıblar. ADNSU və "80-lər" komandası 8 xalla 3-4-cü yerləri bölüşürlər. U-16 komandasının aktivində 6, sonuncu pilədə qərarlaşan ALOV-un isə 5 xalı var.

## Müsahibə

### "Çox istəyirəm ki, Olimpiya çempionu yetişdirim"

***Buyaxınlarda Azərbaycanın ilk cüdoçularından biri olan, Əməkdar məşqçi Tərlan Həsənovun 75 yaşı tamam oldu. Qocaman mütəxəssis bu illər ərzində bir sıra yarışların qalib və mükafatçısı olmaqla yanaşı, xeyli sayda dünya, Avropa çempionları da yetişdirib. Təcrübəli mütəxəssis Tərlan Həsənovla görüşərək, onu 75 illik yubiley münasibəti ilə təbrik etdik.***



***- Tərlan müəllim, əvvəlcə sizi 75 illik yubileyiniz münasibəti ilə təbrik edirik. İstərdik, qısaca da, olsa bu 75 ilə səyahət edək.***

- 1942-ci il noyabrın 26-da Qazax rayonunda anadan olmuşam. Ailədə 4 övlad olmuşuq. Atam Əliheydər Həsənzadə və anam Rüxsarə Ağayeva aktyor olublar. Atam əməkdar artist adını alıb. 1949-cu ildə Bakıya köçdük. Böyük qardaşım Rusiya dövlət mükafatçısıdır, kinemotoqrafiya üzrə mütəxəssisdir. Bacım isə rejissordur. Bir sözlə, ailəmiz incəsənətə çox bağlı olub.

***- Bəs necə oldu ki, insənətə bağlı olan ailədən sizin kimi idman mütəxəssisi yetişdi?***

- Məndə idmana həvəs üç yaşımdan yaranıb. Çox enerjili uşaq olmuşam. Həmişə özümdən böyük uşaqlarla dalaşırdım və çox vaxt onları döyürdüm. Sonradan ciyərlərimdə xəstəlik yarandı. Səhhətimlə bağlı uzun müddət müalicə aldım. Həkimlər mənə idmanla məşğul olmağı qadağan etmişdilər. Lakin idmana olan sevgim sonsuz idi. Buna görə də 14 yaşımda valideynlərimdən icazəsiz sərbəst güləş bölməsinə yazıldım. Mənim ilk müəllimim Helsinki Olimpiya Oyunlarının gümüş mükafatçısı Rəşid Məmmədbəyov olub. Məşqlərə başlayandan bir müddət sonra Bakı çempionu adını qazandım.

#### "Atam həmişə deyirdi ki, uşağın fərsizi pəhləvan olar"

***- Bəs ailəniz bundan necə xəbər tutdu?***

- Bakı çempionu adını qazanandan sonra məşq yoldaşım axşam bizə gələrək əlindəki qəzeti atama göstərərək, dedi: "Əliheydər dayı, bax, qəzetdə Tərlanın Bakı çempionu olması haqqında məqalə çıxıb". Amma məşq yoldaşımın xəbəri yox idi ki, idmana getməyimi evdə heç kim bilmir. Hər dəfə məşqə gedəndə valideynlərimə yalandan deyirdim ki, kitabxanaya gedirəm. Təbii ki, atam idmanla məşğul olmağımdan xəbər tutanda çox əsəbiləşdi, hətta qayışını belindən çıxararaq məni vurmaq istədi. Mənə dedi ki, axı sənə səhhətinlə bağlı idmanla məşğul olmaq ziyandır. Mən atama dedim ki, ata, bəs necə olur ki, xəstə bir uşaq öz çəkisində bütün rəqiblərinə qalib gələrək Bakı çempionu olur? Bu sözdən sonra atam bir qədər təsirləndi və idmanla məşğul olmağıma icazə verdi. Atam həmişə deyirdi ki, uşağın fərsizi pəhləvan olar. Buna bilirsiniz nəyə görə deyirdi? Qardaşlarım məndən sağlam idilər. Atam onların idmançı olmağını gözləyirdi. Məni isə ağır işlərdən qoruyurdu. Lakin hər şey əksinə oldu. Qardaşlarım incəsənəti, mən isə idmanı seçdim. Həmin anları xatırlayıram. Atam heç vaxt yarışıma baxmırdı. Çox həyəcanlanırdı. Mən məşqçiliyə başlayanda bir dəfə atam zala gəldi. Axşama qədər heç nə demədi. Evə qayıdandan sonra məni yanına çağırıb, alnımdan öpdü, dedi ki, afərin sənə ki, belə bir şərəfli sənət seçmisən. Bu, məni çox ruhlandırdı.

***- 75 illik yubileyinizi necə qeyd etdiniz?***

- Düzü, mən heç vaxt ad günlərimi təmtəraqlı qeyd etməmişəm. Amma bu dəfə yubileyimi məşqçi yoldaşlarım, tələbələrim və dostlarımın əhatəsində qeyd etdim. Çox maraqlı oldu, 150-yə yaxın qonaq iştirak etdi. Çox sağ olsunlar ki, mənim xoş günümdə köhnə və cavan tələbələrim, dostlarım ətrafıma toplaşmışdılar, mənə xoş arzularını bildirdilər. Sanki həyatım gözümün qabağında yenidən canlandı.

#### "Başlanğıcda çox səhvlərə yol vermişəm"

***- Tərlan Həsənov yenidən gənc olsa idi, nəyi edərdi və yaxud əksinə, etməzdi?***

- Düzdür, başlanğıcda çox səhvlərə yol vermişəm. Amma buna baxmayaraq 1972-ci ildən bu günə kimi, hər gün dayanmadan tələbələrimə cüdonun sirlərini öyrədirəm. Hər gün demək olar ki, tələbələrə 4 dəfə məşq keçirəm. Məşqçi olmaq çox şərəfli peşədir. İdmanı və məşqçilik peşəsini seçdiyim üçün təəssüflənmirəm. Yenidən gənc olsaydım, yenə də idmanı seçərdim.

***- Tərlan müəllim, 75 il ərzində yaqin ki, bir çox arzularınız olub. Ən böyük arzunuz nədir?***

- Bu illər ərzində mənim acılı-şirinli günlərim olub. Mənim yetirmələrim arasında dünya, Avropa mükafatçıları çıxıblar. Hətta tələbələrim Olimpiya çempionları yetişdiriblər. Mənim bir arzum var. Çox istəyirəm ki, Olimpiya çempionu yetişdirim. Təslim olmaq fikrim yoxdur. Mən hələ Allah qoysa, çox yaşayacağam. Olimpiya çempionu yetişdirmək arzumu həyata keçirməyincə dünyadan köçən deyiləm.

*Azər Əlizadə*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# Uşaq və gənclərin sağlamlığı parlaq gələcəyin təminatıdır

## Cəmiyyət hər zaman təhsildə savadlı, həyatda sağlam, idmanda güclü gənclərə ehtiyac duyur

### "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"

***Yola salacağımız 2017-ci il ölkəmizin sosial, mədəni və idman həyatında bir sıra nailiyyətlərlə yadda qaldı. Ötən illərdə olduğu kimi, bu il də Azərbaycanın idman həyatı üçün uğurlu təqvimlərdən biri oldu. Bu il ərzində ölkəmizdə bir sıra mühüm idman tədbirləri keçirildi. İstər ölkə, istərsə də beynəlxalq miqyaslı yarışlarda azərbaycanlı idmançılar müxtəlif nailiyyətlər əldə etdilər. Təbii ki, uğur və nailiyyətlərin əldə edilməsində ölkədə fəaliyyət göstərən idman qurumlarının və təşkilatlarının böyük payı vardır. Belə təşkilatlardan biri də "Təhsil" Respublika İdman Mərkəzidir (RİM). Yarandığı 1997-ci ildən etibarən ölkənin idman həyatına öz töhfəsini verən mərkəzin təmsilçiləri ölkəmizi beynəlxalq səviyyəli yarışlarda şərəflə təmsil ediblər.***



Azərbaycan Respublikası Təhsil Nazirliyi müvafiq struktur bölmələri ilə birlikdə təhsil sistemində aparılan məktəbdənkənar kütləvi idman və sağlamlıq işlərinə rəhbərliyi uğurla həyata keçirir. Nazirliyin sistemində fəaliyyət göstərən idman və şahmat məktəbləri, bütün tip təhsil müəssisələrinin idman klubları, idman təşkilatları burada məşğul olan uşaq və gənclərin sağlamlığının qeydinə qalır. Proqrama uyğun olaraq, dərsdənkənar vaxtlarda kütləvi bədən tərbiyəsi və idman tədbirlərinin səviyyəsinin artırılması, təhsil alanların sağlamlığının qorunması və möhkəmləndirilməsi üzrə ümumtəhsil, ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil müəssisələrində təşkilati-metodiki fəaliyyətin ayrılmaz hissəsidir. Təhsil alan uşaq və gənclərin sağlamlığının qorunması və möhkəmləndirilməsi, idman ustalıqlarının yüksəldilməsi, onlarda fiziki təkmilləşmə tələbatının, sağlam həyat tərzinin və vətənpərvərlik ruhunun formalaşdırılması istiqamətində aparılan iş "Təhsil" RİM-in də əsas işidir, desək yanılmarıq.

### Məktəblilər arasında təşkil olunan layihələr idmanın inkişafına xidmət edir

"Təhsil" Respublika İdman Mərkəzi bu il ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunlarının təbliği istiqamətində fəallığı ilə seçilən idman təşkilatlarındandır. Mərkəz bu mühüm hadisə ilə bağlı bir sıra tədbirlərin təşkil olunmasına nail olub. İslamiadanın proqramına daxil edilən idman növlərinin məktəblilər arasında təbliğinə həsr olunmuş kütləvi idman tədbirlərini buna misal göstərmək olar. Azərbaycan Respublikası Təhsil Nazirinin 16 mart 2017-cı il tarixli 154 saylı əmrinə əsasən, Təhsil Nazirliyinin dəstəyi və "Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə 30 mart-26 aprel tarixlərində 11 idman növü üzrə (atletika, akrobatika gimnastikası, bədii gimnastika, basketbol, boks, cüdo, karate, sərbəst güləş, stolüstü tennis, taekvondo və yunan-Roma güləşi) yarışlar keçirilib. Kütləvi idman tədbirləri 6 zona olmaqla, ümumilikdə 76 rayon və şəhəri əhatə edib. Zonalar üzrə keçirilən yarışlarda kütləvi idman tədbirlərinin proqramına daxil olan idman növləri üzrə rayon və şəhərlərin yığma komandaları öz qüvvəsini sınayıb. Kütləvi idman tədbirlərində, ümumilikdə, idman növləri üzrə 50 yarışda 6619 məktəbli, 616 fiziki tərbiyə müəllimi iştirak edib. İdman növləri üzrə yarışların idarə edilməsinə 100-ə yaxın hakim cəlb edilib. Oyunların təşkili və keçirilməsində "Təhsil" RİM və 30 idman məktəbinin əməkdaşları iştirak ediblər. Yarışların qalibləri diplom və medallarla təltif olunublar. Yarışlar, əsasən, Olimpiya idman komplekslərinin, idman mərkəzlərinin zal və meydançalarında keçirilib. Burada məqsəd IV İslam Həmrəyliyi Oyunlarının təbliği ilə yanaşı, məktəblilərdə proqrama daxil edilən idman növlərinə marağı artırmaq, onların asudə vaxtlarının səmərəli təşkil edilməsi və fiziki sağlamlıqlarının qorunmasına xidmət etmək olub. Bu, miqyası, iştirakçı sayı və idman növlərinin müxtəlifliyinə görə mərkəzin cari ildə həyata keçirdiyi ən böyük və uğurlu layihələrdən biridir. Məktəblilərin idman və bədən tərbiyəsinə cəlb olunması istiqamətində mühüm işlər görən "Təhsil" RİM bir sıra digər layihələrdə də fəallıq nümayiş etdirir. Məqsəd məktəblilər arasında fiziki tərbiyə fənninə marağı daha da artırmaq, məktəblərdə sağlam və fəal həyat tərzini təşviq etmək, Olimpiya idman irsini davam etdirməkdir.

### "Olimpiya Hərəkatı - 2017": 406 məktəbdən 90 minə yaxın məktəbli

Təhsil Nazirliyi, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, "Coca-Cola" şirkətinin birgə təşkilatçılığı ilə 2016-2017-ci tədris ilində həyata keçirilən "Olimpiya Hərəkatı" layihəsi çərçivəsində məktəblilərin respublika birinciliyi "Təhsil" Respublika İdman Mərkəzinin birbaşa təşkilatçılığı ilə keçirilib. "Olimpiya Hərəkatı - 2017" layihəsi çərçivəsində təşkil olunan məktəblilərin respublika birinciliyinin proqramında voleybol, basketbol, badminton, atletika və velosiped idman növləri yer alıb. Yarışlara Bakı, Gəncə, Sumqayıt şəhərləri və Göygöl rayonu da daxil olmaqla, 406 məktəbdən 90 minə yaxın məktəbli qoşulub.



Təşkilatçı qurumların rəhbər şəxsləri, millət vəkilləri, Olimpiya çempionları, idman növləri üzrə federasiyaların rəhbərləri və digər rəsmi qonaqların iştirak etdiyi bağlanış mərasimdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman naziri Azad Rəhimov, "Azərbaycan Coca-Cola" şirkətinin baş direktoru Erdinc Güzel çıxış edərək qalib məktəbliləri təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, layihəyə növbəti tədris ilindən daha çox məktəblinin qatılacağına ümid etdiklərini bildiriblər. Təhsil nazirinin müavini Firudin Qurbanov bu layihənin şagirdlərin sağlam həyat tərzi seçmələrinə, idmana olan maraqlarının daha da artmasına müsbət təsirindən, məktəblilər arasında dostluq, birlik, əzmkarlıq kimi keyfiyyətlərin aşılanmasındakı əhəmiyyətindən danışıb. Qalib komandalara kubok, diplom, medal, həvəsləndirici mükafatlar təqdim olunub. "Təhsil" Respublika İdman Mərkəzi Olimpiya Hərəkatı lahiyəsinin təşkili və keçirilməsində xüsusi fəallıq göstərdiyinə görə Azərbaycan Milli Olimpiya Komitəsi tərəfindən xüsusi diplomla təltif edilib.

### Ali təhsil ocaqlarında idmana xüsusi diqqət yetirilir

"Təhsil" Respublika İdman Mərkəzi yalnız orta məktəb şagirdləri arasında idman tədbirlərinin təşkili ilə kifayətlənmir. Ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən müxtəlif yarışlar da kütləvi tədbirlər arasında yer alır. Belə ki, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi, Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin dəstəyi, "Təhsil" RİM və "Gənclik" Tələbə İdman Cəmiyyəti Respublika Şurasının birbaşa təşkilatçılığı ilə ali təhsil müəssisələrinin tələbələri arasında universiada keçirilir. Bu il martın 1-dən martın 28-dək təşkil olunan XIII Respublika Universiadasının proqramına 11 idman növü (dama, cüdo, sərbəst güləş, yunan-Roma güləşi, şahmat, voleybol (oğlanlar, qızlar), stolüstü tennis (oğlanlar, qızlar), basketbol, badminton (oğlanlar, qızlar), veloidman və atletika) daxil edilib. Bu yarışlarda 24 ali təhsil müəssisəsindən ümumilikdə 1200 nəfərə qədər tələbə qüvvəsini sınayıb. Bundan başqa, bu il ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri arasında futbol üzrə respublika çempionatı təşkil olunub. Çempionatın keçirilməsində əsas məqsəd ölkənin ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri arasında futbolun kütləviliyinin təmin edilməsi, beynəlxalq yarışlarda iştirak etmək üçün respublikanın tələbələrdən ibarət yığma komandasına namizədlərin müəyyənləşdirilməsi olub. Ölkənin yeniyetmələrdən, gənclərdən ibarət yığma komandalarına perspektivli tələbə futbolçuların seçilməsi, tələbələr arasında ən güclü futbol komandasının müəyyənləşdirilməsi burada çox mühüm əhəmiyyət kəsb edir. Qalib adı uğrunda mübarizə aparan 29 komandadan 20-si paytaxtı, 9-u isə regionları təmsil edib.

Komandalar birinci mərhələdə püşkatma yolu ilə 6 yarımqrupa bölünərək, dairəvi sistem üzrə mübarizə aparıblar. Yarımqruplardan 4-ü Bakı şəhərini, 2-si isə regionları əhatə edib. İkinci mərhələyə (pley-off) vəsiqə qazanan 16 komanda 1/8, 1/4, yarımfinal və final mərhələlərində mübarizəni davam etdiriblər. Bakı şəhəri üzrə oyunlar Binə stadionunda, Milli Olimpiya Komandalarının Təlim-Məşq Bazasının, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akdemiyasının, Milli Aviasiya Akademiyasının stadionlarında, regionlar üzrə isə Şirvan Olimpiya İdman Kompleksinin və Göygöl Olimpiya İdman Kompleksinin stadionlarında keçirilib. Qaliblərin mükafatlandırılması mərasimində Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin prezidenti, təhsil nazirinin müavini, AFFA-nın İcraiyyə Komitəsinin üzvü Firudin Qurbanov, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının I vitse-prezidenti, millət vəkili Rauf Əliyev, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) baş katibi Elxan Məmmədov, millət vəkili Fazil Qəzənfəroğlu, Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov iştirak ediblər. Üç ay davam edən çempionatda 72 oyun keçirilib və bu oyunlarda 700-dən çox tələbə futbolçu iştirak edib.

### Şahmatın tədrisi uğurlu addımdır

İnsanlar tərəfindən icad olunan oyunların içərisində elə bir oyun var ki, həm idmana, həm elmə, həm də incəsənətə yaxındır. O, yaddaşı gücləndirir, diqqəti və səbri artırır, çətin vəziyyətlərdən çıxış yolu tapmaq və ani qərar qəbul etmək vərdişləri formalaşdırır. Yəqin ki, söhbətin şahmatdan getdiyi heç kimə sirr deyil.

Bu idman növü bütün dünyada olduğu kimi, Azərbaycanda da çox populyardır. Demək olar ki, il ərzində həm ölkəmizdə, həm də dünyada 100-dən artıq yarış və turnirlər keçirilir. Ölkəmizdə keçirilən şahmat yarışlarının əksəriyyətində "Təhsil" Respublika İdman Mərkəzi təşkilatçılığı ilə fərqlənir. Mərkəzdə şahmatın inkişafına və yeni şahmatçıların yetişməsinə xüsusi diqqət yetirilir.

Statistikaya nəzər salsaq görərik ki, hazırda respublikamızın təhsil sistemində fəaliyyət göstərən uşaq-gənclər idman şahmat məktəblərində on minlərlə məktəbli bu növlə məşğul olur. Şahmat məktəbləri Təhsil Nazirliyi tərəfindən mebel, elektron şahmat saatları və şahmat fiqurları, nümayiş lövhələri, televizor, kompüter və digər zəruri vəsaitlərlə təmin olunur. Təsadüfi deyil ki, ölkə üzrə 24 nəfər beynəlxalq qrossmeysterdən 15-i, 27 nəfər beynəlxalq dərəcəli idman ustasından 10-u, beynəlxalq reytinqə malik və dünya reytinq cədvəlinə daxil olan 100 azərbaycanlı şahmatçıdan 79-u bilavasitə şahmat məktəblərinin yetirmələridir. Hər il ayrı-ayrı yaş qrupları üzrə keçirilən respublika birinciliklərində mükafatalayiq yerlərin, Avropa və dünya miqyaslı yarışlara vəsiqələrin 80 faizdən çoxunu məhz şahmat məktəblərinin yetirmələri qazanırlar.

Məlumat üçün bildirək ki, ötən il (1-14 sentyabr) Bakı şəhərində 42-ci Ümumdünya Şahmat Olimpiadası keçirilib. Bu yarışda, ümumilikdə, 165 dövlət və 170 komanda mübarizə aparıb. Yarışda Azərbaycanı üç kişi və üç qadın komandası təmsil edib. Bu komandaların tərkibində mübarizə aparan şahmatçıların 23 nəfəri şahmat idman məktəblərinin yetirmələri olub. Reytinq katqoriyalarına görə komandalar 5 qrupa bölünüb. C qrupunda Azərbaycanı təmsil edən üçüncü komanda 34 dövlət arasında 24 xalla I yeri tutub. Komandanın tərkibi demək olar ki, Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən şahmat məktəblərinin yetirmələrindən ibarət idi. Bununla yanaşı, ümumtəhsil məktəb şagirdləri arasında şahmatın geniş təbliğ edilməsi, mədəni səviyyənin yüksəlməsində mühüm rol oynayan bu idman növünə onların meyl və marağının gücləndirilməsi məqsədilə Beynəlxalq Şahmat Federasiyası, Azərbaycan Şahmat Federasiyası və Təhsil Nazirliyi arasında imzalanmış birgə memoranduma əsasən, şahmat ümumtəhsil məktəblərində tədris fənləri sırasına daxil edilib. Təbii ki, bu, bir faktdır ki, şahmat zehni fəaliyyəti, yaddaş və intellekti inkişaf etdirir, şagirdlərdə qətiyyətlilik, mübarizlik, soyuqqanlılıq, sağlam rəqabət kimi mənəvi keyfiyyətləri formalaşdırır, eləcə də, sağlam həyat tərzinin təmin olunmasına zəmin yaradır. Həm də şahmat artıq xeyli vaxtdır ki, dünyanın bir çox ölkələrində tədris olunur.

Pilot layihə olaraq hər rayon və şəhərdən seçilmiş bir ümumtəhsil məktəbinin 2-ci siniflərində şahmat dərslərinin tədrisinə başlanılıb. Hazırda 500-ə yaxın ümumtəhsil məktəbinin 2-ci, 3-cü və 4-cü siniflərində "Şahmat" fənni tədris olunur. Keyfiyyətli tədrisin aparılması üçün ümumtəhsil məktəbləri və şahmat məktəbləri "Şahmat-2", "Şahmat-3" elektron dərs vəsaitləri, 2-ci, 3-cü və 4-cü siniflər üçün "Şahmat" dərsliyi ilə təmin olunub. Bundan başqa, pilot ümumtəhsil məktəblərində "Şahmat" fənnini tədris edən müəllimlər üçün kurslar təşkil edilib.

"Təhsil" RİM-in təşkilatçılığı ilə hər il Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ildönümünə həsr olunmuş bir sıra tədbirlər, o cümlədən ənənəvi olaraq məktəblilər arasında respublika şahmat yarışı keçirilir. Bu il şahmatın tədris olunduğu ümumtəhsil müəssisələrinin şagirdləri ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş şahmat festivalında həvəslə yarışıblar. Şagirdlər şəxsi-komanda xarakteri daşıyan yarışlarda İsveçrə sistemi üzrə oynayıblar. Bir komandanın heyətində 7-10 yaşlı 3 oğlan və 3 qız olmaqla 6 nəfər şagird olub. Festivalın I mərhələsi respublika üzrə "Şahmat" fənni tədris olunan 500 yüzə yaxın pilot məktəbdən 3000 nəfərdən çox şagirdin iştirakı ilə keçirilib, rayon (şəhər) üzrə qalib komandalar finalda iştirak etmək hüququ qazanıb. Final yarışlarında, ümumilikdə, 400-ə yaxın şagird iştirak edib.

"Təhsil" Respublika İdman Mərkəzi həm də hər il 6 yaş qrupu (7-17 yaşlar arası) olmaqla şahmat üzrə respublika çempionatını təşkil edir. Çempionat məktəbdaxili, zona və final yarışları olmaqla üç mərhələdə keçirilir. Yarışlarda adətən 70 idman-şahmat məktəbindən 2000-ə yaxın şahmatçı mübarizə aparır. Məktəbdaxili mərhələnin qalibləri zona yarışlarına vəsiqə qazanır və hər zona üzrə ilk iki yeri tutan şahmatçılar final mərhələsində oynamaq hüququ əldə edir. Müvafiq yaş qrupları üzrə respublika çempionatının final mərhələsində birinci yeri tutan şahmatçılar dünya, ikinci yeri tutan komandalar isə Avropa çempionatında iştirak etmək hüququ qazanırlar. Çempionatın keçirilməsində əsas məqsəd məktəblilər arasında keçirilən dünya və Avropa çempionatlarında iştirak edəcək şahmatçıları müəyyən etmək, şahmatçıların ustalıq səviyyələrinin artırılmasını təmin etməkdən ibarətdir. Bu yarışlarda iştirak edən şahmatçılar üçün daha bir sınaq bu ilin iyun ayına təsadüf edir. Ayın 10-dan 20-dək Monteneqronun Budva şəhərində keçirilən şahmat üzrə məktəblilərin Avropa çempionatında "Təhsil" Respublika İdman Mərkəzinin komandası çempionatda tam heyətlə çıxış edərək, 3 gümüş və 3 bürünc olmaqla ümumilikdə 6 medal qazanıb. Xatırladaq ki, çempionatda ümumilikdə 22 ölkədən 400-ə yaxın şahmatçı iştirak edib.

Bu yarışlardan əvvəl isə "Təhsil" Respublika İdman Mərkəzinin komandası (21 aprel-1 may) Rumıniyanın Yasi şəhərində dünya çempionatında qüvvələrini sınayıb. Mərkəzin komandası çempionatda tam heyətlə uğurlu çıxış edərək, 3 gümüş və 1 bürünc medala sahib olub.

### İllər ötdükcə qazanılan medalların sayı da artır

"Təhsil" Respublika İdman Mərkəzini təmsil edən idmançıların son üç ildə əldə etdiyi nailiyyətlərə nəzər salsaq görərik ki, qurum öz fəaliyyəti üzrə ona bəslənilən etimadı layiqincə doğruldur. Bunu "Təhsil" RİM-in "Olimpiya dünyası" qəzetinə təqdim etdiyi hesabatdan da görmək mümkündür. Mərkəzin idmançıları 2014-2017-ci illər ərzində müxtəlif idman növləri üzrə respublka və beynəlxalq yarışlarda uğurla çıxış ediblər. Belə ki, 2014-cü ildə ümumilikdə 1994 medal qazanılıb ki, bunlardan 1604-ü (479 qızıl, 505 gümüş, 620 bürünc) respublika yarışlarında, 390-ı (116 qızıl, 118 gümüş, 156 bürünc) beynəlxalq yarışlarda əldə olunub. 2015-ci ildə qazanılan medalların sayı 2850-ə çatıb. Bunlardan 2286-sı (683 qızıl, 702 gümüş, 901 bürünc) respublika yarışlarında, 564-ü (184 qızıl, 167 gümüş, 213 bürünc) beynəlxalq yarışlarda qazanılıb. 2016-cı ildə qazanılan 2732 medal da "Təhsil" RİM-in səmərəli fəaliyyətindən xəbər verir. Həmin medallardan 2117-si (684 qızıl, 633 gümüş, 800 bürünc) respublika, 615 medal (206 qızıl, 197 gümüş, 212 bürünc) isə beynəlxalq yarışların payına düşür. Bu ilin altı ayı ərzində isə, ümumilikdə, 855 medal qazanılıb ki, bunlardan 724 medal (245 qızıl, 189 gümüş, 290 bürünc) respublika yarışlarında, 131 medal (60 qızıl, 23 gümüş, 48 bürünc) beynəlxalq yarışlarda əldə olunub.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlirik ki, "Təhsil" Respublika İdman Mərkəzi işini günün tələbləri səviyyəsində qurmağı bacaran idman qurumlarından biri kimi ölkədə idman və Olimpiya Hərəkatının inkişafına öz töhfəsini verir və gələcək nəslin savadlı, fiziki cəhətdən sağlam olması üçün səmərəli fəaliyyət göstərir.

**P.S.** *"Təhsil" Respublika İdman Mərkəzi "olimpnews.az" saytının 2016-cı ildə idman federasiyaları, klublar, idman cəmiyyətləri arasında müxtəlif nominasiyalar üzrə keçirdiyi sorğuya əsasən, 2016-cı ilin idman yarışlarının təşkili nominasiyasının qalibi olub.*

**Anar Əhmədov**

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

## Bölgə idmanı

Dekabrın 9-da Sabirabad Olimpiya İdman Kompleksində Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyevin xatirəsinə həsr olunan yunan-Roma güləşi üzrə açıq zona birinciliyi keçirilib. Yarışın açılış mərasimində Gənclər və İdman Nazirliyinin baş məsləhətçisi Tofiq Eyvazov çıxış edərək ölkəmizdə idmana göstərilən



dövlət qayğısından danışıb, idmançılarımızın beynəlxalq arenada qazandıqları nailiyyətlər barədə məlumat verib. Yeniyetmələri vətənpərvər ruhda böyüməyə səsləyən Tofiq Eyvazov vətən uğrunda şəhid olan oğul və qızlarımızın xatirəsinin daim əziz tutulduğunu diqqətə çatdırıb.

Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını vurğulayan Gənclər və İdman Nazirliyinin rəsmisi gələn il Argentinada təşkil olunacaq yeniyetmələrin III Olimpiya Oyunlarında idmançılarımızın uğurla çıxış edəcəyinə əminliyini bildirib. Sabirabad Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Həsən Həsənov aprel döyüşlərində şəhid olan Murad Mirzəyevin keçdiyi rəşadətli həyat yolundan danışıb. Qeyd edib ki, güclü idmançı və bacarıqlı hərbçi olan Murad Mirzəyev torpaqlarımızın yağı düşməndən müdafiəsində əvəzolunmaz xidmətlər göstərib. Murad Mirzəyev təkcə ailəsinin və sabirabadlıların deyil, bütün Azərbaycanın fəxridir. Azərbaycanın Milli Qəhrəmanının atası Telman Mirzəyev yarışın təşkilatçılarına minnətdarlığını bildirib və iştirakçılara uğurlar arzu edib.

Sabirabad rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə keçirilən yarışda Bakı ilə yanaşı, 14 rayondan 200-dən çox güləşçi birincilik uğrunda mübarizə aparıb. 2004-2006-cı illər təvəllüdlü güləşçilər arasında keçirilən yarış Dünya Güləş Birliyinin qaydalarına əsasən təşkil edilib. Yarışın baş hakimi Cəfər Teyfi-İbrahimzadə, baş katibi isə Oqtay Mehdiyev olub.

Yarışda müxtəlif çəki dərəcələri üzrə fərqlənən idmançılar diplom və medallarla təltif olunublar.

* * *

Əməkdar Məşqçi, SSRİ-nin idman ustası Nadir Ağayevin xatirəsinə həsr olunmuş yunan-Roma güləşi üzrə yeniyetmələr arasında XXIII ənənəvi Respublika turniri başa çatıb. Masallı Olimpiya İdman Kompleksində keçirilən turnir Gənclər və İdman Nazirliyi, Azərbaycan Güləş Federasiyası, Masallı Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilib. İki gün davam edən turnirdə Uşaq-Gənclər İdman məktəblərini, idman cəmiyyətləri və klubları təmsil edən 20 komandanın 200-dən çox yeniyetmə idmançısı qalib adı uğrunda mübarizə aparıb. Qaliblərin mükafatlandırılması mərasimində çıxış edən Masallı rayon gənclər və idman idarəsinin rəisi Camal Manafov, rayon icra hakimiyyətinin məsul işçisi Qəşəm Hadıyev, Rusiya Güləş Federasiyasının vitse-prezidenti Məşgur Qasımov, Gənclər və İdman Nazirliyinin baş məsləhətçisi Tofiq Eyvazov, Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Elçin Cəfərov Əməkdar məşqçi, SSRİ-nin idman ustası Nadir Ağayevin ömür yolundan və qazandığı uğurlardan danışıblar. Çıxış edənlər ölkəmizdə idmanın inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində görülmüş işləri, idmançılarımızın beynəlxalq yarışlarda qazandıqları uğurları qeyd edərək, yeniyetmə idmançılara yeni-yeni qələbə sevincləri arzulayıblar. Respublika turnirinin qalibləri diplom, medal və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

* * *

AFFA-nın təşkilatçılığı ilə Balakən Olimpiya İdman Kompleksində 2006-2007-ci illər təvəllüdlü uşaqlardan ibarət komandalar arasında futzal turniri keçirilib. Turnirdə oğlanlarla yanaşı, qızlardan da təşkil olunmuş komandalar mübarizə aparıblar. Turnirin keçirilməsində əsas məqsəd orta məktəb şagirdlərinin sağlam həyat tərzinə istiqamətləndirilməsi, futbolun kütləviliyinin təmin olunması, futbola marağın artırılmasından ibarət olub.



* * *

Tovuz rayonunda yeniyetmələrin XI respublika oyunları çərçivəsində cüdo yarışları keçirilib. Azərbaycan Cüdo Federasiyası, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən yarışa maraq böyük olub.

İki gün davam edən turnirdə respublikanın əksər bölgələrindən perspektivli yeniyetmə cüdoçular qüvvəsini sınayıb. Yarışda 34 klubdan 171 cüdoçu mübarizə aparıb. Ümumi medal sayında UGİM 2 Sumqayıt komandası 8 medal (3 qızıl, 4 gümüş, 1 bürünc) qazanaraq birinci yerə layiq görülüb. Təhsil RİM SF 9 (3 qızıl, 1 gümüş, 5 bürünc) medalla ikinci, TİM



Gəncə isə 6 medalla (2 qızıl, 3 gümüş, 4 bürünc) üçüncü olub.

Qalib və mükafatçılara medallar və diplomlar təqdim olunub.

* * *

Salyan şəhər 2 nömrəli tam orta məktəbin idman zalında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilən ümumtəhsil məktəbləri arasında voleybol üzrə rayon birinciliyi keçirilib.

Salyan Rayon Gənclər və İdman idarəsi tərəfindən təşkil olunan yarışdan əvvəl ümummilli lider Heydər Əliyevin xatirəsi dərin ehtiramla yad edilib.

Rayon gənclər və idman idarəsinin rəisi Araz Hüseynov tədbirdə çıxış edərək ümummilli lider Heydər Əliyevin xalq və dövlət qarşısındakı misilsiz xidmətlərindən danışıb.

Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən yarışda Sarvan kənd, şəhər 6 və 9 nömrəli tam orta məktəblərin komandaları ilk üç sırada qərarlaşıblar.

Qalib komandalar Salyan Rayon Gənclər və İdman İdarəsi tərəfindən diplomlarla təltif ediliblər.

## *"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# İdman növü uşağın fiziki göstəricisinə, marağına uyğun seçilməlidir

***Hər bir uşağın və gəncin öz aləmi var. Bu aləmi qurub, zənginləşdirmək üçün görüb-götürmək əsas şərtdir. Bu işdə valideynlərin və ətrafın böyük rolu var. Sağlam cəmiyyətdə formalaşan uşaqlar bu günün və gələcəyin layiqli vətəndaşıdır.***

Bu məqamda valideynin diqqəti, ailənin uşağa nəzarəti də əsas amillərdəndir. Uşaq sərbəst böyüməlidir. Onu dar çərçivədə saxlamaq da olmaz. İmkan vermək lazımdır, o seçim edə bilsin. Çətinliyin nə olduğunu, nəzarətsiz qalarkən problemlərin onu sıxacağını, pis vərdişlərdən sığortalanmadığını hələ uşaq ikən anlaya bildiyi tərzdə hiss etməlidir. Bütün bunlarla qarşılaşan zaman uşağa ciddi təsir etmək də çıxış yolu deyil. Bir növ onunla öz dilində danışmalıyıq. Onu sarsıtmalı deyilik. "Ən yaxşısı"nın necə olduğunu örnək göstərməli, onu soyuqqanlı tərzdə həvəsləndirməliyik.



Psixoloqların gəldiyi qənaətə görə, pis vərdişlərə yönələn gənclər uşaq vaxtında onlara qarşı edilən qadağalara həvəsli olduğu üçün bu yolu seçirlər. Çünki insanda maraq hissi daha yüksəkdir. Həvəs isə onun bel sütunudur. Hər bir valideyn övladının maraq dünyasına müsbət xüsusiyyətlər əlavə etməlidir. Onları müəyyən vərdişlərə həvəsləndirməlidirlər. Məsələn, idmanın hər hansı bir növünə. Çünki idmandan gözəl, idmandan faydalı vərdiş və maraq ola bilməz. İdman növü uşağın fiziki göstəricisinə, marağına uyğun seçilməlidir.

Statistikaya görə, təxminən 100 uşaqdan 90-nı futbola böyük maraq göstərir. Hər bir uşaq futbol oynamağa həvəsli olur. Valideynindən futbol topu, köynəyi və ayaqqabısı almağı tələb edir. Onların bu arzusu həyata keçəndə həvəs birə-beş artır. Valideynlərin bu barədə söhbətləri də əsas meyardır. Bizim hər birimiz bu yolu keçmişik.

### "Qol vurulanda hamı kimi biz də sevinərdik"

Həmişə bizdən böyüklərin Azərbaycan futbolu barəsində danışıqlarına qulaq asanda eyni kəlməni eşidirdim. Ağsaqqallar deyirdilər: "Əşi bizdə futbol olmayıb, olmayacaq da... O sovet vaxtı idi, "Neftçi" minlərlə azarkeşi stadiona toplayırdı. Biz də atamızla, iş yoldaşlarımızla, yaxınımızla, lap elə qonşumuzla birlikdə stadiona gedib, Anatoli Banişevskinin, Kazbek Tuayevin, Ələkbər Məmmədovun və başqalarının oyunlarına baxardıq. Qol vurulanda hamı kimi biz də sevinərdik. Neçə gün oyunun eyforiyasından ayrıla biməzdik". Bu sözləri təkcə mən eşitməmişəm. Hamının atası, dayısı və əmisi bunu bizim nəsilə dəfələrlə danışıb. Bu keçmişdə baş verən hadisələrdir ki, indi bir xatirə olaraq daim yaddaşlarda həkk olub. Nə qədər acı da olsa deməliyik ki, Azərbaycan futbolu SSRİ dağıldıqdan sonra bir əfsanəyə çevrilib, dillərdən düşmədi. Müstəqillik əldə edildikdən sonra "yaralı" futbolumuz çox əziyyət çəkdi. Lakin futbolumuz ölmədi. Yeni əsrin başlağıcında futbol bağında qurumuş ağaclar yeni tumurcuqlar açmağa, yeni nəsil formalaşmağa başladı. Uşaq və yeniyetmələrimiz əcnəbi futbolundan bəhrələnib, həvəsə gəldilər. Bəli, əcnəbi futboluna: Braziliya, Hollandiya, Almaniya, İtaliya, İspaniya, lap elə götürək Ukrayna yığmalarına və klublarına...Bu da təbii hal idi. Çünki arada çoxlu fasilə yaranmışdı. Bu fasilədə Azərbaycan futbolu elə bir ciddi uğuru ilə diqqət çəkməmişdi. Qəzetlərdə, jurnallarda, video kassetlərdə dünya və Avropa çempionatını izləyən valideynlər özlərinin futbolçu olmaq arzularını öz övladlarının sayəsində həyata keçirməyə başlamışdılar. Pelenin, Eysebionun, Maradonanın, Van Bastenin, Qullitin, Zidanın, Ronaldonun və başqalarının qolları bizi futbola bağlamışdı.

Hamının həyatında baş vermiş bir hadisəni yada salmaq istəyirəm. Saatlarla həyətdə futbol oynamaqdan yorulmurduq. Nə yemək yada düşürdü, nə də başqa problem. Susayanda isə həyətdəki kranlardan doyunca su içib, vaxtı bilinməyən qarşılaşmaya davam edərdik. Kimin topu var idisə, həmin uşaq oyunun "qəhrəmanı, kapitanı, hakimi və inspektoru" idi. Onun xətrinə dəymək olmazdı, əks halda inciyib, gedərdi evə, oyun da yarımçıq qalardı. Topun sahibi "baş məşqçi" idi. Heyəti o müəyyənləşdirirdi. Zəif futbol oynayan isə qapıdan başqa heç bir mövqedə oynaya bilməzdi. Bunu bir xatirə olaraq, həmişə xatırlayırıq. Bəlkə də gələcək nəsillərə bu gülməli gələcək.

### Ən gözəl nümunə uşaqlardır

Etiraf edək ki, indiki uşaq və gənclərin həyat tərzi elə də zəngin deyil. Çünki, onlar fiziki hərəkətlərdə çox passivdirlər. Bunun səbəbi isə heç kimə sirr deyil. Kompüter ərsində uşaqlar təsəvvür etmədiyimiz qədər həm inkişaf edir, həm də passiv həyat tərzinə təslim olurlar. Düzdür, kompüter bilmək, internetə daxil olub, yeni biliklərə yol açır. Amma uşaq və gəncləri enerjisi bir çərçivədə sıxıla bilməz.

Ekspertlərin fikrincə, uzun müddət kompüter qarşısında oturmaq uşaqların sağlamlığına, xüsusən də gözlərinə ziyandır. Bir çox hallarda valideynlər tərəfindən nəzarət edilmədikdə, uşaqlar oyuna o qədər aludə olurlar ki, nəticədə uşaqda oyuna qarşı asılılıq əmələ gəlir. Belə halda bu, xəstəliyə bənzəyir.

Uşaqlar bəzən oyunlara o qədər vaxt sərf edirlər ki, dərslərini oxuya və digər sosial işlərlə məşğul ola bilmirlər. Nəticədə, ciddi problemlər yaranmağa başlayır. Uşaq özünə qapılır, ətraf aləmdən təcrid olunur.

Bu qeyd edilən mənfi təsirlərin hamısı birbaşa olaraq uşağın normadan artıq kompüter qarşısında oturması ilə əlaqədardır. Əgər valideynlər buna nəzarət edərsə, bu halda uşaqların kompüter oyunları oynamaqları onlara xeyir verə bilər. Lakin araşdırmalar göstərib ki, uşaqların kompüter almazdan öncə dərslərində göstərdikləri nəticələr kompüter aldıqdan sonra göstərdiyi nəticələrdən daha yaxşı olur. Bununla belə, hər bir uşaq fərqli xarakterə, iradəyə və ağıla sahib olduğu üçün kompüterin həmin uşağa necə təsir edəcəyi də onun özündən asılıdır.

Böyüklərimizin bir sözü hər zaman aktuallığını itirmir. Onlar deyirlər: "Uşaq dəcəl olar, amma qədərində. Uşağın öz aləmi olmalıdır. O aləmdə özü üçün daha xoşbəxtdir. Buna mane olmaqdansa, nəzarət etsək, bəs edər". Bu yerdə yadıma müdriklərdən birinə verilən sual və maraqlı cavab yadıma düşür.

Bir gün bir alimdən soruşurlar:

- Biz kimdən nümunə götürək? Alimlərdən, yoxsa tacirlərdən?

- Heç birindən - deyə, alim cavab verir və davam edir - Ən gözəl nümunə uşaqlardır.

- Axı, uşaqlar heç nə bilmirlər.

- Yanılırsınız. Uşaqlar hamımıza nümunə olan 3 keyfiyyətə malikdirlər. Birincisi, həmişə xoşbəxtdirlər, ikincisi həmişə məşğuldurlar. Üçüncüsü, həmişə istədiklərini necə əldə edəcəklərini bilirlər.

Hesab edirəm ki, həmin müdrikin verdiyi cavab hər şeyi özündə əhatə edir.

### Hamı bu oyundan danışır

Futbol mövzusundan uzaqlaşmayaq. Futbolun keçmişindən danışıb, bir az da bu günündən danışaq. Bu gün idmanın "şahı" sayılan futbol milyonları öz sehrinə salıb. Yaşından və cinsindən asılı olmayaraq hamı bu idman növündən danışır. Etiraf edək ki, futbol qədər populyarlıq qazanan idman növü hələ də yoxdur. Uşaqlar dünyanın ən yaxşı futbolçularını özlərinə kumir seçirlər. Gənclər onlar kimi futbol oynaya bilməsələr də, onlar kimi görünməyə müvəffəq olurlar. Gənclərimiz isə onların futbol formalarında görünməyə çalışırlar. Bu çox təqdirəlayiq haldır. Futbolun fanatı olmaq bir növ bir məşğuliyyət sahibi olmaq deməkdir. Ən azından pis vərdişlərdən uzaq olurlar. Onları spirtli içki və qəlyan məclisi deyil, futbol həyəcanı bir araya toplayır. Futbol gənclərə elə təsir edir ki, həftə bir neçə dəfə işdən sonra bir araya toplaşıb, meydanda öz bacarıqlarını nümayiş etdirirlər. Bu isə asudə vaxtın təşkili və sağlamlığın qorunması üçün ən yaxşı vasitədir.

### Gözlənilməz qələbələr və vurulan qollar xatırlanır

Yazının əvvəlində mövzuya bizim futbolla başlamışdıq. Bizim futbol deyəndə, bu gün Azərbaycan millisi, "Qarabağ" və "Qəbələ" klubları gözümüzün önünə gəlir.

Azərbaycan milli komandası barəsində danışarkən, ilk olaraq seçmə mərhələlərdə əldə olunan gözlənilməz qələbələr və vurulan qollar xatırlanır. Millimiz heç vaxt dünya və Avropa çempionatının final mərhələsində iştirak etməsə də, elə qələbələr qazanıb ki, bu həmin yarışların çempionluq sevinci ilə bərabərdir. Yığma komandamız İsveçrə, Norveç, Serbiya və Türkiyə millilərinə qalib gəlib, Portuqaliya, Rusiya, Xorvatiya yığmalarından 1 xal ala bilmişik. Bu qələbələr futbola olan marağı bir qədər artırıb, uşaq və gənclərdə həvəs oyadıb. UEFA bayrağı altında keçirilən yarışlarda klub təmsilçilərimiz də bizim futbola olan marağımızı çoşdurub. Avropa Liqasında uzun illərdən sonra Azərbaycanın iki klubu - "Qarabağ" və "Qəbələ" yeni bir tarix yazdı. Futbolun beşiyinə çevrilən Avropada hamı bu klubların çıxışına şahid oldu. Zəif rəqib kimi nəhənk klubların "şikarı"na çevriləcəyini düşünənləri, klub təmsilçilərimiz məyus etdi. Sübut etdi ki, milyonların rəğbət bəslədiyi klubları məğlub etmək də olar, onların yolunda maneə olub, onları büdrətmək də...

### İdman kimi maraqlı, gərəkli və faydalı ikinci bir məşğuliyyət yoxdur

Çempionlar Liqası kimi mötəbər turniri biz daha çox televiziya və internet vasitəsilə izləyirdik. Klub təmsilçimizin hansı matçda, necə oynadığını hər birimiz xatırlayırıq. Ama matçların start fitindən əvvəl dünya ulduzlarının əlindən tutub, minlərlə azarkeşin toplaşdığı meydana daxil olan uşaqlar hələ də gözümüz önündən getmir. Qrizman, Torres, Morata, Vilyan, Əl Şaravi, de Rossi, Rəşad Sadıqov, Almeyda və digər ulduzların əlindən tutan uşaqların sevincini heç bir mükəmməl sözlə ifadə etmək olmur. Bu uşaqların həyatında yeni bir uğur, yeni bir mərhələ idi. Həmin dünya məşhurlarını görüb, onlarla təmasda olması "gələcəyin ulduzları"ın böyük futbola gəlişində körpü rolunu oynayır. Bu görüşdən sonra uşaqlardan biri öz həmyaşıdına və məhlədəki dostuna bu barədə ağızdolusu danışır, onda bu həvəsin yaranmasına zəmin yaradır. Beləcə, daha bir uşaqda futbola və idmana maraq formalaşır. Bir sözlə, idman kimi maraqlı, gərəkli və faydalı ikinci bir məşğuliyyət yoxdur. Gəlin, hər birimiz idmanı seçək, övladımızın gələcəyini sağlam ruhda formalaşdıraq.

***Anar Əhmədov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün*

# F U T B O L

*UEFA Çempionlar Liqasında (ÇL) VI tur başa çatıb. Ölkəmizi turnirdə təmsil edən "Qarabağ" səfərdə "Roma" klubu ilə münasibətlərinə aydınlıq gətirib. Meydan sahiblərinin üstünlüyü şəraitində keçən matç onların minimum hesablı qələbəsi ilə başa çatıb.*



# "Qarabağ" Çempionlar Liqasını 2 xalla başa vurdu

**UEFA Çempionlar Liqası**

VI tur

*C qrupu*

**"Roma" (İtaliya) - "Qarabağ" (Azərbaycan) - 1:0**

**Qol:** Perotti, 53.

**"Roma":** 1. Alisson Bekker, 4. Radja Nainqqolan, 6. Kevin Strotman, 8. Dieqo Perotti (7. Lorenzo Pelleqrini, 81), 9. Edin Dzeko, 11. Aleksandr Kolarov, 16. Daniele de Rossi, 20. Federiko Fazio, 24. Alessandro Florenzi, 44. Kostas Manolas, 92. Stefan Əl-Şaravi (30. Gerson, 72).

**"Qarabağ":** 13. İbrahim Şehiç, 2. Qara Qarayev, 5. Maksim Medvedev, 8. Migel Madera, 9. Dino Ndlovu (90. Ramil Şeydayev, 85), 11. Mahir Mədətov (44. Ağabala Ramazanov, 85), 20. Riçard Almeyda, 22. Əfran İsmayılov (99. Dani Kintana, 76), 32. Elvin Yunuszadə, 52. Yakub Jezniçak, 77. Donald Gerye.

**Hakimlər:** Tobias Stieler, Mayk Pikel, Yan Seydel, Kristian Gittelmann (hamısı Almaniya).

*5 dekabr. Roma. "Olimpiko" stadionu. 34 258 tamaşaçı.*

## Kapitansız məğlubiyyət

Bu oyun Qurban Qurbanovun yetirmələri üçün mövsümün son sınağı idi. C qrupunda sonuncu yeri tutan "Qarabağ" Çempionlar Liqasının əsas mərhələsindəki debütünü İtaliya paytaxtında yekunlaşdırıb. Təmsilçimiz oyuna itkilərlə çıxmışdı. Cəzalı kapitan Rəşad Sadıqovla Pedro Enrike, zədəli Ansi Aqolli və Bədavi Hüseynovun yoxluğunda Ağdam klubunun gücü xeyli dərəcədə zəifləsə də, 5 qat ölkə çempionumuz "canavarlar"ı büdrətmək niyyətində idi. Qarşılaşma "Qarabağ" üçün formal xarakter daşısa da, "Roma" üçün həlledici idi. Çünki 1/8 finala vəsiqə qazanmaq üçün italyanlar meydana qələbə üçün çıxırdı.

Matça romalılar hücumlarla başlayıblar. Bir neçə epizodda qol vurmağa yaxın olan meydan sahiblərinin qarşısını qapıçı İbrahim Şehiç alıb. Qonaqlar da rəqibdən geri qalmırdılar. İmkan düşdükcə hücumlar qurmağa çalışırdılar. Belə vəziyyətlərin birində Dino Ndlovu qol vura bilərdi. Cənubi afrikalı futbolçunun zərbəsini rəqib qapıçı dəf edib. İlk hissədə tərəflərin səyinə baxmayaraq, qol vurulmayıb.

İkinci hissə də eyni ssenari ilə başlayıb: Roma təmsilçisi hücum edib, qonaqlar isə müdafiədə "oturmaqla" kifayətlənib. Bunun nəticəsində meydan sahibləri istəklərinə çatıblar. Oyunun 53-cü dəqiqəsində Edin Dzekonun zərbəsindən sonra qapıçı İbrahim Şehiçdən geri dönən topu Perotti boş qapıya vurub - 1:0.

Matçın sonuna yaxın təmsilçimiz hesabı bərabərləşdirə bilərdi. Sol cinahdan təşkil olunmuş hücum zamanı komanda yoldaşından ötürmə alan Migel Maderanın başla zərbəsini qapıçı dəf edib.

Beləliklə, oyunda başqa qol olmayıb və "Qarabağ" Çempionlar Liqasını məğlubiyyətlə tərk edib.

## İbrahim Şehiç - ÇL-in ən yaxşı qapıçısı

Keçirilən bütün oyunlardan sonra ÇL-in qrup mərhələsinin ən yaxşılarının adı açıqlanıb. Qitənin ən nüfuzlu klub turnirinin ən yaxşı bombardiri, assistenti, ötürmə və seyv sayındakı rekordçusu bəlli olub.

İlk dəfə yarışda təmsil olunan Azərbaycanın da nümayəndəsi ən yaxşılardan biri olmağı bacarıb. "Qarabağ"ın qapıçısı İbrahim Şehiç seyv sayında turnirin "1 nömrə"sidir. Bosniya və herseqovinalı qapıçı 6 oyunda hamıdan çox - 35 seyv edib. O, turnirin ən yaxşısı adını 3 seyvlik fərqlə əldə edib. "Maribor"un qapıçısı Yasmin Handanoviç 32 zərbəni dəf edib. MOİK klubunun qapıçısı İqor Akinfeyevin hesabında 29 seyv var. Andrey Pyatov ("Şaxtyor") 25, Silvio Proto ("Olimpiakos") 24 zərbə dəf etməklə ilk "beşlik"də yer alıb.

Bombardirlər cədvəlinə isə Kriştianu Ronaldo başçılıq edir. O, 9 qolla hamıdan öndədir. Onun 5 izləyicisinin hərəsi 6 dəfə fərqlənib.

Assistentlər siyahısında isə Ceyms Milner 1-ci olub. "Liverpul"un futbolçusunun hesabında 5 qol ötürməsi var. O, izləyicisi Neymardan minimum fərqlə öndədir.

"Sevilya"nın futbolçusu Ever Baneqa ötürmə sayında ən yaxşı adını qazanıb. 613 ötürməsi olan futbolçu ən yaxın izləyicisi - Marko Verattini (PSJ) 72 fərqlə geridə qoyub.

## "Qarabağ"a həsəd aparan "nəhənglər"

"Qarabağ" Çempionlar Liqasının qrup mərhələsinə mübarizəni 2 xalla başa vurub. Qurban Qurbanovun yetirmələri bu göstərici ilə turnirin 32 iştirakçısının ikisindən daha yaxşı nəticə göstəriblər. Bu klublar qrupda böyük təcrübəyə malik "Benfika" ilə "Olimpiakos"dur. Portuqaliya çempionu hər 6 oyunda məğlub olaraq, xal qazana bilməyən yeganə komanda olub. Yunanıstan çempionu isə qitə yarışlarını 1 xalla yekunlaşdırıb.

"Monako" (Fransa), "Borussiya" (Dortmund, Almaniya) və APOEL (Kipr) klubları da "Qarabağ"la eyni sayda - 2 xal toplayaraq ÇL-də mübarizəni dayandırıb. Onlardan yalnız APOEL-in top fərqi Ağdam təmsilçisindən pisdir. Belə ki, kiprlilər vurduğu 2 qolun qarşılığından 17-ni buraxıb (-15), ağdamlılar da 2 qol vursa da, daha az - 14-nü buraxıb (-12). Beləliklə, bu nəticələrdən sonra "Qarabağ" turnirin cari mövsümünü 29-cu pillədə başa vurmuş sayılır.

Təmsilçimiz qol sayında yalnız "Benfika"nı üstələyir. Lissabon təmsilçisi eyni zamanda ən az qol vuran komandadır - cəmi 1 qol.

"Qarabağ" buraxdığı qol sayında "Seltik" (18), "Anderlext" (17), APOEL (17) və"Maribor" klublarını (16) qabaqlayır. "Benfika" və "Feyenoord" (Hollandiya) isə bizlə eyni sayda qol buraxıb.



Göründüyü kimi, "Qarabağ" Avropanın ən nüfuzlu klub turnirində Almaniya, Fransa, Portuqaliya, Belçika kimi nəhəng ölkələrin təmsilçilərindən daha yaxşı göstəriciyə imza atıb.

## "Hücum xəttində düşündüyümüz bəzi epizodlar alınmadı"

**Qurban Qurbanov ("Qarabağ" klubunun baş məşqçisi):** ""Roma" klubunu təbrik edirəm. Onlara növbəti oyunlarında uğurlar arzulayıram. Çox istərdim ki, məğlub olmayaq. Amma bir qol buraxdıq. Buna baxmayaraq, razı qaldım. Layiqli çıxış etməyə çalışdıq. Komandamız məğlub olmaq istəmirdi. Ümumilikdə, qrup mərhələsindəki çıxışımızı normal hesab edirəm. "Çelsi" ilə ilk oyunu nəzərə almasaq, futbolçularımız layiqli çıxış etdilər. Bəlkə də, əlavə xallar qazanmaq imkanımız var idi. Amma bəzi oyunlarda vərəqə aldığımız epizodlarda futbolçularımızın təcrübəsi çatmadı. Rəqiblərimizin hər biri ilk iki yeri tutmağa layiq idilər. Ramillə Ağabalanı oyunun gedişatına uyğun olaraq meydana buraxdıq. Hücumda hərəkətliliyi artırmağı düşündük. Onlar hücum xəttində sürəti daha da artırmalı idilər.

Bizim kimi komandalarda əlimizdə nə qədər çox oyunçu olsa, variantlar da çox olur. Onların olmaması bizim üçün sıxıntılar yaratdı. Müdafiə xəttinin oyununa gəlincə, bir-iki epizodu çıxmaq şərtilə çox diqqətli oynadılar. Hər bir futbolçunun çıxışından razı qaldım. Sadəcə, hücum xəttində düşündüyümüz bəzi epizodlar alınmadı".

## ""Qarabağ" layiqli rəqib idi"

**Eysebio di Françesko ("Roma" klubunun baş məşqçisi):** "Komandam qələbə qazanmağı çox istəyirdi. Buna məcbur idik. Birinci hissədə istədiyimiz kimi oynaya bilmədik. İkinci hissədə isə fəallaşdıq, qol vurduq, qələbəni təmin etdik. Artıq indidən 1/8 final barədə düşünməyə başlamışıq. Bunu çox istəyirdik. Amma bununla kifayətlənmək olmaz. Daha da böyük uğurlar üçün çalışmalıyıq. Bu gün qələbəni çətinliklə qazandıq. Doğrudan da, komandamızın sol cinahı yaxşı çıxış edir. Futbolçularımız yaxşı vəhdət təşkil edirlər. Amma mən bütün komandadan daha yaxşı oyun gözləyirəm. Stefan Əl-Şaravinin də çıxışını xüsusi qeyd edərdim. O da çox yaxşı oynayır.

"Qarabağ" əla oyun nümayiş etdirdi. Yalnız ilk oyunu çıxmaq şərtilə. Çünki "Çelsi" ilə ilk oyunda sistem səhv idi. Ondan sonra həmin sistemdən istifadə etmədilər və çıxışları da uğurlu alındı. "Qarabağ" layiqli rəqib idi. Xüsusilə, "Atletiko"nun qarşısını aldılar. Hansı ki, bu, bizim üçün böyük əhəmiyyət kəsb edirdi".

---

# "Qara qartallar" məğlubiyyətsiz zirvəyə doğru

## "Atletiko" isə avroliqada yarışacaq

***UEFA Çempionlar Liqasının qrup mərhələsinə yekun vurulub. İki gün ərzində keçirilən matçlardan sonra növbəti mərhələyə vəsiqə qazanan klubların siyahısı tam bəlli olub.***

A qrupunda mübarizə aparan "Bazel" səfərdə "Benfika"nın qonağı olub. Qonaqların hücumları şəraitində keçən matç onların qələbəsi ilə başa çatıb. "Mançester Yunayted" öz meydanında MOİK klubunu məğlub edib - 2:1. Altı matçdan sonra İngiltərə və İsveçrə təmsilçiləri 1/8 finala vəsiqə qazanıblar. Şimal qonşularımız isə mübarizəni Avropa Liqasında davam etdirəcəklər.



B qrupunda vəsiqələrin sahibi əvvəlki turlarda məlum olmuşdu. Ona görə də keçirilən iki oyun formal xarakteri daşıyırdı. "Anderlext" səfərdə "Seltik" üzərində sensasiyalı qələbə qazansa da, turnir cədvəlində mövqe dəyişməyib. Turun maraqlı matçı Münhendə olub. "Bavariya" doğma azarkeşlər önündə PSJ klubunu məğlub edib.

Son tur öncəsi C qrupunda 3 klubun növbəti mərhələyə vəsiqə qazanmaq şansı qalmaqda idi. "Atletiko" klubu çətin səfər oyununda 1 xalla kifayətlənib. Buna görə də madridlilər çıxışını yalnız Avropa Liqasında davam etdirmək məcburiyyətində qalıblar. "Roma" isə qələbə sayəsində lider kimi 1/8 finala yollanıb.

D qrupunda növbəti mərhələnin sahibləri əvvəlcədən bəlli idi. 1/8 finalda çıxış edəcək "Barselona" və "Yuventus" klubları qrup mərhələsini qələbə ilə yekunlaşdırıblar. "Sportinq" isə şansını Avropa Liqasında sınayacaq.

E qrupunda "Liverpul" "Spartak" klubunu meydana çıxmağa peşman edib - 7:0. İngilislərə qoşulan ikinci komanda isə "Maribor"la heç-heçə edən "Sevilya" olub.

F qrupunda "Şaxtyor" doğma azarkeşlər önündə "Mançester Siti" klubunu sınağa çəkib. Ukraynalılar qələbə sayəsində növbəti mərhələyə vəsiqə qazanıblar. İtalyanlar isə səfərdə "Feyenord"a uduzaraq avroliqaya gediblər.

G qrupunda qrupdan çıxmağı özləri üçün təmin etmiş "Beşiktaş" səfərdə "Leyptsiq"i xalsız qoyub. "Monako"ya qalib gələn "Porto" isə 1/8 finala yüksəlib.

H qrupunda son turun oyunları formal xarakter daşıyırdı. Turnir cədvəlinin liderləri "Tottenhem" və "Real" klubları qələbə qazanıblar. Madridlilərin qollarından birinin müəllifi olan Kriştianu Ronaldo tarixə düşüb. Oyunun 13-cü dəqiqəsində dortmundluların qapıçısını məyus edən Ronaldo bununla da Çempionlar Liqası tarixində qrup mərhələsinin 6 oyununda da qol vuran ilk futbolçu olub.

**UEFA Çempionlar Liqası**

*VI tur*

**5 dekabr**

*A qrupu*

"Benfika" (Portuqaliya) - "Bazel" (İsveçrə) - 0:2

**Qollar:** El Yunusi, 5, Oberlin, 65.

"Mançester Yunayted" (İngiltərə) - MOİK (Rusiya) - 2:1

**Qollar:** Lukaku, 65, Reşford, 66 - Dzaqoev, 45.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| **1. Mançester Y.** | 6 | 5 | 0 | 1 | 12-3 | 15 |
| **2. Bazel** | 6 | 4 | 0 | 2 | 11-5 | 12 |
| 3. MOİK | 6 | 3 | 0 | 3 | 8-10 | 9 |
| 4. Benfika | 6 | 0 | 0 | 6 | 1-14 | 0 |

*B qrupu*

"Seltik" (Şotlandiya) - "Anderlext" (Belçika) - 0:1

**Qol:** Simunoviç, 62 (öz qapısına).

"Bavariya" (Almaniya) - PSJ (Fransa) - 3:1

**Qollar:** Levandovski, 8, Tolisso, 37; 69 - Mbappe, 50.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| **1. PSJ** | 6 | 5 | 0 | 1 | 25-4 | 15 |
| **2. Bavariya** | 6 | 5 | 0 | 1 | 13-6 | 15 |
| 3. Seltik | 6 | 1 | 0 | 5 | 5-18 | 3 |
| 4. Anderlext | 6 | 1 | 0 | 5 | 2-17 | 3 |

*C qrupu*

"Çelsi" (İngiltərə) - "Atletiko" (İspaniya) - 1:1

**Qollar:** Saviç, 75 (öz qapısına) - Nigez, 56.

"Roma" (İtaliya) - "Qarabağ" (Azərbaycan) - 1:0

**Qol:** Perotti, 58.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| **1. Roma** | 6 | 3 | 2 | 1 | 9-6 | 11 |
| **2. Çelsi** | 6 | 3 | 2 | 1 | 16-8 | 11 |
| 3. Atletiko | 6 | 1 | 4 | 1 | 5-4 | 7 |
| 4. Qarabağ | 6 | 0 | 2 | 4 | 2-14 | 2 |

*D qrupu*

"Olimpiakos" (Yunanıstan) - "Yuventus" (İtaliya) - 0:2

**Qollar:** Kuadrado, 15, Bernardeski, 90.

"Barselona" (İspaniya) - "Sportinq" (Portuqaliya) - 2:0

**Qollar:** Pako, 59, Metyu, 90+1 (öz qapısına).

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| **1. Barselona** | 6 | 4 | 2 | 0 | 9-1 | 14 |
| **2. Yuventus** | 6 | 3 | 2 | 1 | 7-5 | 11 |
| 3. Sportinq | 6 | 2 | 1 | 3 | 8-9 | 7 |
| 4. Olimpiakos | 6 | 0 | 1 | 5 | 4-13 | 1 |

**6 dekabr**

*E qrupu*

"Maribor" (Sloveniya) - "Sevilya" (İspaniya) - 1:1

**Qollar:** Tavares, 10 - Qanso, 75.

"Liverpul" (İngiltərə) - "Spartak" (Rusiya) - 7:0

**Qollar:** Koutinyo, 4; 15; 50, Firmino, 19, Mane, 47; 76, Salah, 86.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| **1. Liverpul** | 6 | 3 | 3 | 0 | 23-6 | 12 |
| **2. Sevilya** | 6 | 2 | 3 | 1 | 12-12 | 9 |
| 3. Spartak | 6 | 1 | 3 | 2 | 9-13 | 6 |
| 4. Maribor | 6 | 0 | 3 | 3 | 3-16 | 3 |

*F qrupu*

"Feyenoord" (Hollandiya) - "Napoli" (İtaliya) - 2:1

**Qollar:** Yorgensen, 33, Sent Cust, 90+1 - Zielinski, 2.

"Şaxtyor" (Ukrayna) - "Mançester Siti" (İngiltərə) - 2:1

**Qollar:** Bernard, 26, İsmaili, 32 - Aquero, 90+2.



| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| **1. Mançester S.** | 6 | 5 | 0 | 1 | 15-4 | 15 |
| **2. Şaxtyor** | 6 | 4 | 0 | 2 | 9-9 | 12 |
| 3. Napoli | 6 | 2 | 0 | 4 | 11-11 | 6 |
| 4. Feyenord | 6 | 1 | 0 | 5 | 5-14 | 0 |

*G qrupu*

"Porto" (Portuqaliya) - "Monako" (Fransa) - 5:2

**Qollar:** Abubakar, 9; 33, Brahimi, 45, Telles, 65, Soares, 88 - Qlik, 61, Falkao, 78.

"Leypsiq" (Almaniya) - "Beşiktaş" (Türkiyə) - 1:2

**Qollar:** Keyta, 87 - Neqredo, 10 (pen.), Talişka, 90.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| **1. Beşiktaş** | 6 | 4 | 2 | 0 | 11-5 | 14 |
| **2. Porto** | 6 | 3 | 1 | 2 | 15-10 | 10 |
| 3. Leypsiq | 6 | 2 | 1 | 3 | 10-11 | 7 |
| 4. Monako | 6 | 0 | 2 | 4 | 6-16 | 2 |

*H qrupu*

"Tottenhem" (İngiltərə) - APOEL (Kipr) - 3:0

**Qollar:** Llorente, 20, Son, 38, Nkudu, 80.

"Real" (İspaniya) - "Borussiya" (Dortmund, Almaniya) - 3:2

**Qollar:** Mayoral, 8, Ronaldo, 13, Lukas, 81 - Obameyanq, 43; 49.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| **1. Tottenhem** | 6 | 5 | 1 | 0 | 15-4 | 16 |
| **2. Real M.** | 6 | 4 | 1 | 1 | 17-7 | 13 |
| 3. Borussiya D. | 6 | 0 | 2 | 4 | 7-13 | 2 |
| 4. APOEL | 6 | 0 | 2 | 4 | 2-17 | 2 |

***Səhifəni hazırladı: Rahib Səmədov***

# DÜNYA idmanı



## Kliçko proloq yazıb



Boks üzrə ağır çəki dərəcəsində keçmiş dünya çempionu Vladimir Kliçko əfsanəvi idmançı Məhəmməd Əli haqqında kitaba proloq yazıb.

"Mən "Məhəmməd Əli - dünyamızın irsi" kitabına böyük məmnuniyyətlə proloq yazdım", - deyən ukraynalı boksçu instaqram səhifəsindən kitabın üz qabığı ilə birlikdə şəklini paylaşıb.

Məlumat üçün bildirək ki, Məhəmməd Əli ötən il, ömrünün 75-ci baharında dünyasını dəyişib. Məhəmməd Əli (Kassius Kley) dünya peşəkar boks tarixində ən məhşur simalardan biridir. O, Roma-1960 Olimpiadasının çempionu, 1964-1966, 1974-1978-ci illərdə ağır çəki dərəcəsində dünya çempionu tituluna layiq görülüb. Karyerası ərzində 61 döyüş keçirib, 56-da (37-ni nokautla) qalib olub.

## *İranlı idmançı dünya rekordunu yeniləyib*

İran idmançısı Söhrab Moradi dünya rekordu müəyyənləşdirib. Söhrab Moradi ABŞ-ın Anahaym şəhərində keçirilən ağır atletika üzrə dünya çempionatında 94 kq çəki dərəcəsində çempion adını qazanıb.

İranlı idmançı birdənqaldırmada 184 kq, təkanla qaldırmada isə 233 kq çəkinin öhdəsindən gələrək ümumi hesabda 417 kq nəticə göstərib. Həm birdən qaldırmada, həm də təkanla qaldırmada dünya rekordu müəyyənləşdirən Söhrab Moradiümumi hesabda öz rekordunu da yeniləyib.

## İlin ən yaxşı qapıçıları müəyyənləşdi



2017-ci ilin ən güclü qapıçılarının adları müəyyənləşib.

Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (İFFHS) tərəfindən keçirilən sorğunun qalibləri Canluici Buffon və Sarah Buhaddi olub. Qurumun internet saytında aparılan, jurnalist və idman mütəxəssislərinin iştirak etdiyi sorğuda kişi qapıçılar arasında 251 xal toplayan Buffon rəqiblərini böyük fərqlə qabaqlayıb. Almaniyalı qapıçı Manuel Noyer siyahıda ikinci yeri tutub. İlk "üçlük"də Madrid "Real"ının qapıçısı Keylor Navas qərarlaşıb.

Qeyd edək ki, Canluici Buffon bununla 5-ci dəfə (2003, 2004, 2006, 2007) ilin qapıçısı seçilib. Bununla o, rekordçu İker Kasilyasa çatıb.

Qadın qapıçılardan isə Sarah Buhaddi 190 xala layiq görülüb. "Lion"un qolkiperi hollandiyalı Sari van Veenendaalı üstələyib.



Mohsen Zarifon (İran)

*"Olimpiya dünyası" qəzetinin arxivindən*

**("Olimpiya dünyası" qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)**

## *Messinin heykəli, Qarmaşın özü hücuma məruz qalıb*

"Barselona" futbol klubunun hücumçusu Lionel Messinin Argentinada qoyulan heykəli ikinci dəfə hücuma məruz qalıb.

Messinin Buenos-Ayros şəhərində qoyulan heykəlinin bu dəfə ayaqları kəsilib. Heykələ kimin hücum etdiyi məlum deyil.

Xatırladaq ki, yanvar ayında Messinin heykəlini iki yerə bölmüşdülər.

* * *

Kiyev "Dinamo"sunun futbolçusu Denis Qarmaşın avtomobili naməlum şəxslər tərəfindən atəşə tutulub.

Hadisə Ukraynanın paytaxtında baş verib. Bildirilir ki, onun avtomobili Dnepropetrovsk küçəsində yeraltı dayanacaqda atəşə məruz qalıb. Hadisə nəticəsində xəsarət alan olmayıb.

Hadisənin təfərrüatları araşdırılır.



## Hamilton "ilin ən yaxşı" pilotu seçildi

Formula-1 üzrə "Mersedes" komandasının pilotu Lyuis Hamilton "Autosport Awards"ın illik mərasimində iki mükafata layiq görülüb.

Tamaşaçıların səsverməsi nəticəsində Hamilton 2017-ci ilin ən yaxşı pilotu nominasiyasının qalibi olub. O, həmçinin ən yaxşı Britaniya pilotu adını alıb.

Qeyd edək ki, Hamilton beşinci dəfədir ki, ilin ən yaxşı pilotu seçilir.




"İlin ən yaxşı"sı seçilən "Mersedes" komandasının pilotu Lyuis Hamilton karyerasından danışıb. Tanınmış pilot bildirib ki, o artıq 10 ildən artıqdır ki, eyni komandada yarışır və bundan sonra da dəyişiklik etmək fikrində deyil.

Pilot həm də heç vaxt "Ferrari" komandasını təmsil etməyəcəyini bildirib: "Heç vaxt "Ferrari"ni təmsil etmərəm. Mən fəxr edirəm ki, "Mersedes"in bir parçasıyam. Ömür və tale vəfa etsə, karyeramın sonuna qədər burda çalışacağam. Məni bu komanda ilə 10 ildən artıq zaman kəsiyi birləşdirir".

Qeyd edək ki, Lyuis Hamilton artıq 4-cü dəfədir ki, dünya çempionu tituluna layiq görülür.

## Robinyoya doqquz il həbs cəzası verilib

Braziliya yığmasının sabiq futbolçusu Robinyo Milan şəhər məhkəməsi tərəfindən qrup şəklində zorlamada iştiraka görə, qiyabi olaraq doqquz il azadlıqdan məhrum edilib. İstintaqın versiyasına görə, albaniyalı qız 2013-cü ildə Milanda gecə klublarının birində təcavüzə məruz qalıb. Cinayətdə həmin vaxt Milan klubunda oynayan Robinyodan başqa onun beş dostu da iştirak edib.

Qeyd edək ki, hazırda 33 yaşlı hücumçu Braziliyanın "Atletiko Mineyro" klubunda çıxış edir. O, bu komandaya Çinin "Quançjou Everqrand" komandasından keçib.




Futbolçu karyerası ərzində "Santos", "Real", "Milan", "Mançester Siti" kimi komandaların formasını geyinib.

## *Basketbolçunun ürəyi dayanıb*



Amerikalı boksçu Tay Solomonun matç zamanı ürəyi dayanıb. Cənubi Karolina Universitetinin şərəfini qoruyan idmançının yarışda halı pisləşib. Lakin təcrübəli həkimlərin anında müdaxiləsi ilə basketbolçunun həyatını xilas etmək mümkün olub. Sonra Tay Solomon xəstəxanaya yerləşdirilib.

Oyun isə basketbolçunun komandasının xeyrinə başa çatıb.

## *Viktorina*

Ölkəmizdə idmanın, Olimpiya Hərəkatının inkişafı və təbliğində özünəməxsus dəsti-xətti olan "Olimpiya dünyası" qəzeti fəaliyyətinin ilk günlərindən başlayaraq müxtəlif layihələr həyata keçirir. Bu layihələrdən biri də çoxsaylı oxucularımız arasında maraqlı viktorinaların təşkilidir. Məlumat üçün bildiririk ki, viktorinaya hər ayın sonunda yekun vurulacaq, qaliblər redaksiyaya dəvət olunaraq müxtəlif hədiyyələrlə mükafatlandırılacaq və "Olimpiya dünyası" qəzetinə 1 illik pulsuz abunə olunacaqlar.



Diqqət...Diqqət.

Oxucularımıza hər dəfə 5 suala cavab tapmalıdırlar.

Hər doğru cavab 1 balla qiymətləndiriləcək. Cavabları aşağıda göstərilən ünvana və ya elektron poçta göndərə bilərsiniz.

**Ünvan:** *Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a (Metronun "Gənclik" stansiyasının yaxınlığında)*

**E-mail:**
olimpiya_dunyasi@mail.ru

*Əlaqə telefonları: (012) 564-74-19; 564-90-49; 564-90-54*

| Suallar | Cavablar |
|---|---|
| 1. ***Atlanta-1996 Olimpiadasında ən çox tamaşaçı toplayan idman növü hansıdır?*** | |
| 2. ***XXIX Yay Olimpiadasının keçirildiyi "Quş yuvası" stadionunun tikintisi neçəyə başa gəlib?*** | |
| 3. ***BOK-un 7-ci prezidenti kim olub?*** | |
| 4. ***WADA nə vaxt yaradılıb?*** | |
| 5. **Yay Olimpiya Oyunlarında ən çox iştirak edən idmançı kimdir?** | |

Olimpiya dünyası

**Baş redaktor:**
**M.Q.Fərzəliyev**

**Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168**

**AZƏRBAYCAN BEYNƏLXALQ BANKI**
**H/H AZ79IBAZ38090019449333849204**
**M/H 0137010002944**
**KOD 805250**
**VÖEN 1500306421**

**Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**
**Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.**

**Qiyməti 20 qəpikdir.**
**Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri çap edilir.**

**DİQQƏT!**
**Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.**

***E-mail:***
**olimpiya_dunyasi@mail.ru**
***Ünvan:***
**Bakı şəhəri,**
**2-ci sülh döngəsi, 2a.**
***Tel.:*** **564-90-49; 564-90-54; 564-74-19**